**PAŞA YAQUB**

# ŞIX EYYUB BABA

**Bakı – 2010**

**Elmi redaktoru:** ***Hacı Mirəziz Seyidzadə***
*Qafqaz Müsəlmanları İdarəsinin Elm və Təhsil şöbəsinin müdiri, fəlsəfə elmlər namizədi, Qazi*

Paşa Yaqub «**Şıx Eyyub Baba**»,
«Zərdabi LTD» MMC, Bakı, 2010, 96 s.

Əlinizdəki «Şıx Eyyub Baba» kitabı müəllifin sayca on altıncı kitabıdır. Bu kitabda tanınmış övliya Şıx Eyyub Baba və övladlarının kəramətlərindən və mənalı ömür yolundan bəhs olunur.

Kitabda həmçinin kimya, fizika, riyaziyyat, anatomiya, astronomiya, kibernetika və informatika elmlərinin bu günədək gizli məqamlarından və onların Quranla əlaqəsindən bəhs olunur.

$Y \frac{05005000000}{024-2010}$ Qrifli nəşr

© Paşa Yaqub, 2010

# ŞIX EYYUB BABA

## Rəhman və Rəhim olan Allahın adı ilə

"***Biz Davuda və Süleymana elm verdik. Onlar dedilər: "Bizi öz mömin bəndələrinin çoxundan üstün tutan Allaha hənd olsun!***" Quran, "Qarışqalar" surəsi, 16-cı ayə.

Allah-təalanın möminlərin çoxundan üstün tutaraq, övliyalıq məqamı ilə şərəfləndirdiyi saleh bəndələrindən biri də böyük övliya, kəramət sahibi Şıx Eyyub Badadır. O, 1730-cı ildə Şirvan Xanlığının mərkəzi olan Şamaxının Ərəbqədim kəndində doğulmuşdur. Körpə yaşlarında atasını itirdiyindən, anasıyla bərabər ana vətəni olan Şamaxının Quşçu kəndinə gəliblər və dayılarının yanında yaşayıblar. Haşimilər nəsilindən olan Şıx Eyyub Babanın əcdadları VII əsrdən sonra Azərbaycana İslam dininin gözəlliklərini çatdırmaq üçün gəlmişlər. Təbii ki, özləri də iman, təqva və halallıq baxımından bu gözəlliyin nümunəsi olmuşlar. Mövlanə Cəlaləddin Rumi buyurur ki, "*Allah-təala görünən, bilinən Kəbəni təvaf etməyi kirdən təmizlənmiş, cilalanmış bir könül kəbəsi əldə edilsin deyə fərz qılmışdır.*"

Şıx Eyyub Babanın əsdadlarının Azərbaycana gətirdiyi İslam dini də insan qəlbini cilalamaq, mənəviyyatını paklaşdırmaq, onu kamilləşdirərək Allah dərgahına qaldırmaq üçün yeganə vasitə idi.

Onların Azərbaycana gəlişindən sonra neçə-neçə insanlar İslam dininin imkanlarından istifadə edərək nurlanmış və övliyalıq məqamına yüksəlmişdir. Belə şəxslər (Allah dostları) yaşadıqları dövrdə insanlara doğru yol göstərmələri və xeyir- duaları ilə onlara fayda vermişlər. Bu səbəbdən qəlblərdə Allah dostlarına qarşı sevgi yaranmışdır. Bu sevginin nəticəsidir ki, əsrlər boyu İslam nuru ilə nurlanmış, Quran əxlaqı ilə əxlaqlanmış kəramət sahiblərinin qəbirləri insanlar tərəfindən sevilə-sevilə ziyarət olunur. Necə ki, Rəbbim buyurur: "***Həqiqətən iman gətirib yaxşı işlər görənlər üçün Rəhman*** *(ürəklərdə)* ***sevgi yaradacaq***" "Məryəm" surəsi, 96

Allahın öz dostlarına qarşı ürəklərdə sevgi yaratdığı, insanlara sevdirdiyi övliyalardan biri də Şıx Eyyub Babadır. Onun özündən əvvəlki nəsl şəcərəsi aşağıdakı kimi sıralanır. Şıx Eyyub – Bayram – Alxan – Məhəmməd – Məlikcəbrayıl – Rzaxan (Düşməl) – Əhmədxan – İbrahim – Alıxan – Məhəmməd – Atəm – Həmzə – Şühəda (peyğəmbərimizin əmisi) – Əbdül – Müttəlib (Əbdül Müttəlibin əsl adı Şeybədir və Həzrəti Peyğəmbərimizin babasıdır)

Haşım (Əmr) – Əbd Mənat (Muğirə) – Kusay (Zeyd) – Kilab – Mürrə – Kəb – Lüəyy – Qalib – Fixr – Məlik – Nədr – Kinanə – Xuzeymə – Müdrikə (əmr) – İlyas – Mudar – Nizar – Mədd – Adnan – İsmayıl – Peyğəmbər – İbrahim Peyğəmbər.

Quşçu kəndində Şölə adlı qızla ailə quran övliya Şıx Eyyub Baba dolanışığını təmin etmək üçün heyvandarlıqla məşğul olmuşdur. Onun payına düşən

2 qışlaq, bir yaylaq və qoyun sürüsünü dayılarının köməyi ilə saxlamışdılar. Qeyd edim ki, həmin torpaqlar Sovet dönəminə qədər övliyanın nəslinin mülkiyyətində olmuşdur.

Bildiyimiz kimi övliyalıq məqamına yüksələn şəxslər mütləq əvvəlki övliyaların ya müridi olur, ya da dünyasını dəyişmiş müqəddəslərdən mənəvi ilham - işarə alır, bu yolla özlərini təmizləyə-rək övliyalıq məqamına yüksəlirlər. Mövlanə Cəlaləddin Rumi bu halı belə ifadə edir: “*Bir biçaq öz sapını, başqa biçaq olmadan necə yona bilər? Sən get yaralarını bir könül cərrahına göstər. Sən onları təkbaşına müalicə edə bilməzsən*”. Şıx Eyyub Babanın da “könül cərrahı” Babadağda ziyarətgahı olan, möminlərin səcdəgahı, mövlamız Həzrət Baba olmuşdur. Müqəddəs yüklə yüklənməzdən öncə baş verən darıxma anlarında, cəmiyyətdə özünə yer tapa bilməyəndə, həmsöhbət tapa bilməyəndə Şıx Eyyub Baba Babadağa çıxar, günlərlə orada tək qalaraq, müqəddəs Həzrət Babanın ruhuyla həmsöhbət olar, ondan mənəvi güc, qüvvə, ilham alardı. Həzrəti Peyğəmbərimiz Məhəmməd əleyhissəlam ilk görəvini Hira dağında qəbul edib, müqəddəs vəziyfəylə yükləndiyi kimi, Şıx Eyyub Baba da övliyalıq yükü ilə məhz Babadağda - Həzrət Babanın xeyir - duası və yardımı ilə yüklənmişdir. Allah-təala həmişə mü-qəddəs işlərə başlamağa müqəddəs yerlərdə qərar verir. Söhbətin bu yerində ünlü türk yazarı Musa Topbaşın Həzrəti Peyğəmbərimizin yaşayıb, müqəd-

dəs fəaliyyətlə məşğul olduğu Mədinə şəhərinə həsr etdiyi bir şeri yadıma düşdü:

*Nə dilərsən Haqq eşidir*
*Haqqa yaxın yer burası.*
*Mədineyi - Münəvvərdir*
*Haqca münəvvər burası.*

*Bura şəhri - Məhəmməddir!*
*Yerdən göyə məhəbbətdir!*
*Ucalara bir məbəddir:*
*Möminə minbər burası.*

*O ruzgar əsmədə halən,*
*Zamandır yenən, yenilən.*
*Cənnəti - Rizvan deyilən*
*Mülkə bərabər burası.*

*Gerçək iman bu nurdandır,*
*Bu nur şəfəq, bu nur dandır!*
*Bu ilahi buxurdandır*
*Müşk ilə ənbər burası!*

*Nurdan yolu, nurdan izi,*
*Nurdan cismi, nurdan üzü!*
*Hara dönsə, nur dənizi,*
*Nuri - Peyğəmbər burası!*

*Bu yerdə qürbət duyulmaz,*
*Bu yerdə nurdan doyulmaz!*
*Hər parça daş-birər almaz!*

*Yaqutu-cövhər burası!*

*Şeyx Musa nur məkanında!*
*Qutsal ruhlar dörd yanında!*
*Şeyxim, ALLAH amanında!*
*Min ömrə bərabər burası!*

Şıx Eyyub Baba övliyalıq məqamına yüksələndən sonra, artıq onun duaları haqq dərgahında rədd olunmurdu. Onun üçün də xəstələr şəfa üçün, sıxıntısı olanlar dərdlərinin çarəsi üçün ona müraciət edər, onun xeyir duası ilə çətinlikdən qurtarardılar. Tibb eliminin inkişaf etmədiyi XVIII-XIX əsrlərdə Şıx Eyyub Baba Şamaxı və ətraf şəhərlərin əhalisi üçün təbib rolunu oynayırdı. Necə ki, Loğman Peyğımbər dövrünün həkimi idi: "**Həqiqətən, Loğmana: "Allaha şükr et"** (deyə) **hikimət verdik.**" ("Loğman"12) Ayədən görünür ki, Rəbbim bütün dövrlərdə insanların problemlərini həll etmək üçün özünə yaxın şəxslərə elm, hikimət bəxş edir. Övliya Əbu Hüreyrə bu halı belə ifadə edir:

"*Elmlərdən bəzi gizli olanları vardır ki, onları ancaq "arifi-billah" olanlar anlayar. Bu elmdən bəhs etdikləri vaxt onları ancaq məğrur və özlərini bəyənən şəxslər cahillikdə suclayarlar. Əsla Haqq - təalanın öz fəzlindən elm verdiyi alimləri (Peyğəmbərləri, övliyaları - müəllif.) kiçik görməyin! Çünki Haqq- təala onlara o elmi verərkən kiçik görmədi!*"

Allahın elm verərək şərəfləndirdiyi şəxslərdən biri də Şıx Eyyub Baba idi. O, Allahın bəxş

etdiyi elmi cəmiyyətin sağlamlığına, sıxıntılardan qurtulmasına yönəldirdi. Odur ki, yaşadığı dövrdə cəmiyyət arasında çox böyük nüfuz qazanmışdı.

Rus çarının Tiflisdəki arxivində Şıx Eyyub Baba barədə sənədlər toplusu vardır. Topluda həmin dövrdə Azərbaycanda fəaliyyət göstərən Kürdəmirli Mövlana Hacı İsmayıl Əfəndinin, Şıx Zərbalının və Qaraçallı Hacı Abdu Əfəndinin təşkil etdikləri zikr məclislərindən bəhs edilir. Sənədin bir yerində Şıx Eyyub Baba haqqında deyilir:

*"Cəzbə adlanan zikir mərasimlərini Şeyx Eyyub həftədə bir dəfə - cümə günləri Bakı - Şamaxı yolunun üstündəki Acıdərə adlanan yerdə keçirir. Şeyx Eyyub nəfissiz adam idi. Özünü Həzrət Babanın xəlifəsi hesab edirdi. Həzrət Babanın nəslinin davamçıları olmadığı üçün gətirilən nəzirlərin hamıya məxsus olduğunu müridlərə bildirirdi. Ədalətli bölgü aparmaq üçün o, müridlər arasında cümlə - icma yaratdı. Bütün nəzirlər cümə gününə qədər toplanır. Cümə namazından sonra isə toplanan nəzirlər müridlər arasında ədalətlə bölünür.*

*Müridlər ayinlərini - zikirlərini belə həyata keçirirlər:*

*Cümə günü bütün müridlər Acıdərədə yığışırlar. Günorta cümə namazı qılarkən mürüdlər Şeyxin ətrafında yarımdairə vurub eyni səslə oxumağa başlayırlar. Min dəfə "Allahdan başqa Allah yoxdur", sonra Şeyxin həftə ərzində öyrətdiyi zikirləri oxuyurlar. Başlarını və bədənlərini sağa - sola əyərək, vəcdə gələnə qədər "Allah - hey" oxuyurlar. Görəndə*

*ki, müridlər yorulub, Şeyx ucadan hansısa zikiri oxuyur, müridlər o dəqiqə sakitləşirlər.*

*Sonda xəlifələri xeyir - dua almaq üçün Şeyxə yaxınlaşır, o da onların kürəyinə yumuruqla vurur. Daha sonra növbə siravi müridlərə çatır...*

*Şeyx Əyyubun ölümündən sonra Şeyxlik oğlu Molla Məhəmmədə keçir. O, atasının təlimini heç bir yenilik gətirmədən davam etdirir. Onun ölümündən sonra isə Şeyxilik Əhmədpaşaya keçir.* (Qafqaz Təhsil İdarəsinin nəşri. Tiflis. İ.K.Koldovskinin Qafqazdakı hərbi və mülki dəftərxanası.)

## Tarixi şərait

Şıx Eyyub Baba övliyalıq fəaliyyətinə başlayanda Şirvanda Xanlıq üsul - idarəsi hakim idi: Şirvan Xanı Mustafa xan (1792-1820) ruslarla 1805-ci ildə 25 dekabr traktını imzalamasına baxmayaraq bəzi siyasi məsələlərdə müstəqil hərəkət edirdi. Onun bütün Şimali - Şərqi Zaqafqaziyada və Cənubi Dağıstanda nüfuzunun güclü olması Rus hökümətini narahat edirdi. Odur ki, çar məmurları onun nüfuzunu zəiflətmək üçün bəhanələr axtarırdılar.

O dövrdə antiqafqaz, antimüsəlman davranışı ilə tanınan Qafqaz canişini A.R.Yermolov (1816-1827) Mustafa Xandan narazılığını belə ifadə etmişdir: "*Onun yanında bizim hökümətimizin təyin etdiyi pristav var idi. Amma xan onu elə təcrid etmişdi ki, o, xanın əlaqələri və davranışı haqqında heç nə bilmirdi.*

*Yalnız bizə bağlı olan ermənilərdən bəzi məlumatları toplayırdıq.*"

Göründüyü kimi həmin dövrdə çar hökuməti xanların, bəylərin hüquqlarını məhdudlaşdırdığı kimi, alimlərə, din xadimlərinə qarşı təzyiqləri də artırırdı.

Bütün təzyiqlərə baxmayaraq Mustafa Xan övliyalara və pirlərə xüsusi qayğı göstərirdi. Belə ki, onun Kürdəmirli Mövlanə İsmayıl Siracəddin Şirvaniyə (Hacı İsmayıl Əfəndiyə) və Şıx Eyyub Babaya daimi diqqət və qayğı göstərdiyi və yeri gələndə maddi yardımlar etməsi haqqında faktlar mövcuddur. Xanın həyat yoldaşı Şəki Xanı Hüseyn Xanın qızı Fatma Bəyim də müqəddəslərin ziyarətində tez-tez olur, onlara maddi yardımlar edirdi. Həmçinin Xanın digər həyat yoldaşı Güləndam xanım da övliyaları daim ziyarət edirdi.

Yeri gəlmişkən qeyd edim ki, Mustafa Xandan qabaq hakimiyyətdə olan Ağası Xan da Şıx Eyyub Babaya ehtiram göstərmiş, çətin anlarda onunla məsləhətləşmişdir.

## Övliyanın qəbrini dağıtmağa çalışırlar

Övliyaya qarşı sağlığında olduğu kimi, ölümündən sonra da Rus hököməti tərəfindən təzyiqlər davam etmişdir. Belə ki, Sovet dönəmində insanların ziyarət etməsinin qarşısını almaq üçün Şıx Eyyub Babanın Acıdərədəki qəbirüstü günbəzini dəfələrlə dağıtmağa cəhd etdilər. Lakin hər dəfə Allah

- təala bir möcüzə ilə öz dostunun qəbrini qorumuşdur.

Övliyanın nəticəsi Şahbaz Baba söhbət edirmiş ki, bir gün kəndin kənarında, yolun üstündə dayanmışdım. Kuzovu əsgərlə dolu olan bir yük maşını yanımda dayandı. Əsgərlərdən biri Şıx Eyyub Babanın günbəzinə getmək üçün onlara bələdçilik etməyimi xahiş etdi. Mən onları ziyarətçi bilib razılıq verdim və maşının kuzovuna – adamların yanına qalxdım. Bir qədər getdikdən sonra məlum oldu ki, bunlar günbəzi ziyarət etməyə deyil, dağıtmağa gedirlər. Maşına mindiyimə peşman oldum və Allaha yalvardım ki, elə bir vəziyyət yaransın mən burdan düşüb qaça bilim. Bu dəmdə elə bir qatı duman gəldi ki, maşındakı adamlar biri-birini görə bilmədi. Fürsətdən istifadə edib, maşının arxasından düşüb, uzaqlaşdım. Kənardan baxıb gördüm həmin maşın dumandan irəlləyə bilmədiyindən, qayıdıb getdi.

Sonradan Şıx Eyyub Babanın qəbrini dağıtmaq üçün edilən daha bir cəhdin qarşısını Allah - təala öz tədbiri ilə aldı. Belə ki, hökümət əsgərlər və milislərlə dolu iki maşın adamı külüng və bellərlə “yaraqlandırıb” övliyanın günbəzini dağıtmağa göndərdi. Acıdərə yoluna dönəndə maşınların ikisinin də mühərriki söndü. Çox çalışsalar da maşınları işə sala bilmədilər. Bundan ibrət götürməyib, komandirləri əmr etdi ki, piyada gedib tapşırığı yerinə yetirməliyik. Əks halda bizi işdən çıxararlar. Əsgərlər və milislər piyada gedib qəbiristanlığa yaxınlaşanda birdən bir sürü ilan onlara hücum edir və bir neçə kilometr

onları qovur. Bu hadisədə gələnlərdən bir neçəsinin ürəyi partlayıb yolda ölür, çox hissəsi ağır yara alırlar. Daha ağıllı olan bir milis isə hadisədən sağ qurtarmaq üçün hər il bu ziyarətgahda bir qurban kəsməyi nəzir edir və sağ çıxan az adamdan biri olur. Deyilənə görə həmin milis işçisi ölənə qədər Şıxın ziyarətgahında hər il qurbqn kəsib.

Yuxarıda nəql etdiyim hadisələr yadıma Həzrəti Peyğəmbərimizin qəbirini dağıtmaq istəyənlərin başına gələn əhvalatı saldı. Əhvalat belə olmuşdur.

*Nacirud - dövlənin hakimiyyəti dövründə Həzrəti Peyğəmbərimiz Məhəmməd Əleyissəlamin qəbrinin qonşuluğunda yaşayan iki yəhudi evlərinin içindən lağım ataraq Peyğəmbərin pak qəbirini dağıtmaq istəyirdilər. Nacirud - dövlə yuxuda görür ki, Peyğəmbər ona deyir: "Məni bu iki nəfərin əlindən xilas et." Bir neçə gün bu yuxunu təkrar görür, heyrətdən donub qalır və bilir ki, Mədinədə nəsə pis bir hadisə baş verməkdədir. Mədinəyə gəlib şəhər əhalisinin hamısını bir cərgəyə düzür. Bir-bir hamısının üzünə baxdıqda, yuxuda gördüyü o iki nəfəri tanıyır. Göstəriş verir ki, onları tutub bu məkirli planlarını zərərsizləşdirsinlər və onlara ağır cəza versinlər.*

*Sonra göstəriş verdi ki, şərif qəbrin ətrafını qazıb onu əridilmiş filizlə doldursunlar ki, poladdan olan bir divar yaransın və gələcəkdə heç kəs belə işlərə cürət etməsin.*

# Odu pambığa bükən övliya

Şıx Eyyub Babaya övliyalıq hikimətləri bəxş olunması haqqında xəbər Mustafa Xana ilk dəfə çatanda, Xan onu sinamaq qərarına gəldi.

Evdən çıxarkən, həyat yoldaşı ərinə bir qızıl üzük büküb verir və deyir ki, əgər görsən ki, Eyyuba həqiqətən də övliyalıq bəxş olunub, onda bu hədiyyəni mənim adımdan ona verərsən.

Mustafa Xan yolda gedərkən, fikirləşir ki, əgər Eyyub əvvəlki kimi mənim pişvazıma çıxıb, qulluq göstərərsə, deməli övliya deyil.

Nəhayyət Xan yaylağa gəlib çıxır. Eyyubun pişvazına çıxmadığını görüb, onun alaçığına daxil olur. Salam - kəlamdan sonra Şıx Eyyub Baba deyir ki, Xan, elə bilmə ki, səni saymadığıma görə pişvazına çıxmıram, sənin qəlbində tutduğun niyyət məni bu fikirdən daşındırdı.

Mustafa xan övliya ilə bir qədər söhbətləşdikdən sonra çıxıb getmək istəyir. Şıx Eyyub Baba üstüörtülü şəkildə eyham vurur ki, bacımın göndərdiyi hədiyyəni verməyi unutdun. Bəy üzüyü bağlama ilə birlikdə övliyaya verdi. Şıx Eyyub Baba xəlvətcə ocaqdan qırmızı bir köz götürüb, əvvəlcə pambığa bükdü, sonra həmin pambığı Xanın gətirdiyi dəsmalın arasına qoyub bərk-bərk bağladı. Bağlamanı Xana verib, tapşırdı ki, bacıma- yəni xanımına ver, amma yolda açma.

Xan evə qaydanda, xanımıyla bərabər bağlamanı açdı və gördükləri mənzərədən hər ikisi heyrət-

ləndilər: qıp-qırmızı köz pambığa bükülsə də, pambığın heç bir lifi də saralmamışdı. Bu hikiməti görən Mustafa xan Şamaxı ilə Hacıqabul arasında olan və Acıdərə adlanan min hektara qədər torpaq sahəsini Şıx Eyyub Babaya hədiyyə etdi. Həmin torpaqlar sovetlər dönəminə qədər övliyanın nəvə-nəticələrinin mülkiyyəti olmuşdur.

## Övliyanın müridi qarğa sürüsünü qabağına qatıb gətirdi

Şıx Eyyub Babanın Sofu Xanməmməd adlı bir müridi vardı. Ürəyində fikirləşirdi ki, neçə illərdi mürşidimə xidmət edirəm, görəsən mənim hikimət payımı niyə vermir? Şıx bunu duyur və Xanməmmədə deyir çuvalı götür get taxıl sahəsinə, qarğalar toxumu aparır, onları yığ çuvala, qalanını da qabağına qat gətir. Xanməmməd duruxub durur. Eyyyub Baba deyir sənə nə deyirəm onu elə.

Bir azdan görürlər Sofu Xanməmməd çiynində bir çuval qarğa, qabağında da bir sürü qarğa budu ha gəldi. Şıx müridinin kürəyinə yumuruqla vurub: "*Get, sənə itik tapmanı verdim*"- deyir.

Sofu Xanməmməd ölənə qədər bu hikimətin daşıyıcısı olur. Öləndən sonra isə nəvəsi Xantemir itən şeylərin yerini dəqiqliklə deyərmiş.

## Ziyarətgahdakı qoç heykəli nəyə işarədir

Şıx Eyub Babanın günbəzinin yanında bir qoç heykəli düzəldilib. Bu heykəl özündə maraqlı bir əhvalatı yaşadır. Əhvalat belə olmuşdur :



Adını və ünvanını göstərmək istəmdiyim bir nəfər heykəltaraşın övladı olmurmuş. Gedib Babadağda – Həzrət Baba ziyarətgahında dua edir ki, övladım olsun gətirib bu ziyarətgahda qoç qurbanı kəsərəm. Bu əhdən sonra həmin adamın biri oğlan, biri qız olmaqla, iki övladı dünyaya gəlir. Lakin həmin şəxs bu övladların götürdüyü qurbanla əlaqədar olduğuna inanmır, bunun bir təbii, bioloji proses olduğunu fikirləşir. Düşünür ki, qurban götürməsəydi də uşaqlar olacaqdı. (O, həm də o qədər günahkar imiş kı, öz duasının Allah dərgahında qəbul olunacağına inamı yox imiş). Nəhayət uşaqlar 10-12 yaşına catdıqda ikisi də dünyasını dəyişir. Ata cox böyük sarsıntı, peşimançılıq keçirir. Bu vaxt övliyalardan biri yuxusuna girib Həzrət Babada etdiyi duanı onun yadına salır. Bildirir ki, uşaqlar ona Həzrət Babanın xeyir duası ilə verilmişdi. Əhdini yerinə yetirmədiyinə görə Allah verdiyini geri aldı. Lakin Allah sənə daha bir şans verir: qəlbinin sərtliyini göstərmək ücün qoç heykəli düzəlt, apar Şıx Eyyub Baba ziyarətgahına qoy.

Cünki Şıx Eyyub Həzrət Babanın xəlifəsidir və orada bu işi görmək asandır. Bunu etsən Allah sənə yenidən övlad bəxş edəcək.

Həmin Heykəltəraş qoç heykəli düzəldərək, deyilən yerə qoyur və əvvəl əhd etdiyi qurbanı kəsərək, Allahdan bağışlanmasını diləyir. Bundan sonra Rəbbim yenidən ona övlad bəxş edir.

Bu əhvalatdan (hekayətdən) sonra Quranın «Yusif» surəsinin 111-ci ayəsi yerinə düşür:

**«*Bu hekayətlərdə ağıl sahibləri üçün sözsüz ki, bir ibrət vardır. Uydurma bir söz deyildir. Ancaq özündən əvvəlkilərin*** *(kəramət sahiblərinin)* ***təsdiqi, hər bir şeyin müfəssəl izahıdır. O, iman gətirənlər üçün hidayət və mərhəmətdir !*»**

**«*Əhdə vəfa edin. Çünki insan əhd barəsində*** *(Allah qarşısında)* ***cavabdehdir!*»** «Gecə vaxtı seyr» surəsi, 34-cü ayə.

## İlan rusu ziyarətgaha buraxdı, «müsəlman»ı buraxmadı

Şıx Eyub Babanın nəslindən olan Hacı Ceyhun nəql edir ki, uşaqlıqda anası ilə Acıdərədə Babının günbəzini ziyarətə gediblər. Bu vaxt bir rus qadın da əlində bir ağ xoruz, yanında nəvəsi ziyarətə gəlibmiş. Bunlardan başqa da qonşu kənddən bir kişi ilə bir qadın ziyarətə gəlibmiş. Bu qadınla kişi rus qadını acılayıblar ki, siz niyə bura gəlirsiniz**...** Rus qadın deyib ki, hamımızın Allahı birdir – istər

Amerikada yaşayan olsun, istər burada. Biz də Allahın övliyalarını sevirik və ziyarət edirik.

Hacı Ceyhun söhbət edir ki, qış olmasına baxmayaraq, günbəzin qapısının ağzında dayanmış bir ilan gördük. Anam ilana dedi cəkil, bizə yol ver, keçək. İlan qapıdan bir az aralanıb, bizə yol verdi. Ziyarət edib cıxandan sonra ilan yenə də qapıda dayandı. Rus qadın nəvəsinin əlindən yapışıb günbəzin qapısına yaxınlaşanda ilan geri cəklib onlara da yol verdi. Onlar da ziyarət edib cıxandan sonra ilan yenidən qapını kəsdi. İndi ziyarət növbəsi rusu təhqir edən kişi ilə qadının idi. Onlar yaxınlaşıb nə qədər yalvarsalar da ilan qapıdan cəkilmədi və onlar ziyarət etmədən geri qayıtdılar.

Hacı Ceyhun danışır ki, bu hadisədən təxminən 20-il sonra bir məclisdə cavan bir rus oğlan bu əhvalatı danışdı və həmin vaxt uşaq olduğunu və nənəsi ilə bu ziyatərgaha gəldiyini, ağ xoruz gətirdiklərini, təhqir olunduqlarını və sair yuxarıdakı hadisəni olduğu kimi danışdı. Oturanlardan çoxu söhbətin yalan olduğunu güman edəndə, Hacı Ceyhun ayağa qalxır və söhbətin doğruluğunu təsdiq edb, birinci ziyarət dən qadının onun anası, yanındakı uşaq isə özü olduğunu bildirir.

Hacının danışdığı bu əhvalat yadıma Quranın **«İmran ailəsi»** surəsini 113-115 –ci ayələrini saldı:

«**Onların** (yəhudi və xiristianların) **hamısı eyni deyil. Kitab əhli içərisində düzgün** (sabitqədəm) **bir camaat vardır ki, onlar gecə vaxtları səcdə edərək, Allahın ayələrini oxuyurlar. Onlar Allaha, axirət**

**gününə inanır,** (insanlara) **yaxşı işlər görməyi əmr edir, pis əməllərdən cəkindirir və xeyirli işlər görməyə tələsirlər. Onlar əməlisaleh şəxslərdəndirlər. Onların yaxşılıq naminə etdikləri işlərdən hec biri inkar edilməz** (mükafatsız qalmaz) **şübhəsiz ki, Allah mütəqi olanları tanıyır !»**

Şıx Eyyub Baba 1797-cı ildə vəfat etdi. Qəbri - şərifi Acıdərə kəndindədir. Qəbrin üstündə oğlu Məhəmməd Baba günbəz tikdirmişdir. Bura mö-minlərin ən sevimli ziyarətgahıdır.
Şıx Eyyub Babanın yolunu yurdunda qalan yeganə oğlu və Xəlifəsi Şıx Məhəmməd Baba davam etdirdi.



# ŞIX MƏHƏMMƏD BABA

Məhəmməd Eyyub oğlu 1774-cü ildə Şamaxı rayonunun Acıdərə obasında doğulub. O, dünyaya gələndə atasının 44 yaşı vardı. Adını atası gördüyü bir yuxu ilə əlaqədar qoymuşdu.

On yaşına çatanda Şıx Eyyub Baba oğlunu təhsil almaq üçün mədrəsəyə qoydu. Bütün gəncliyini nüfuzlu alimlər yanında (o cümlədən elmi - ladunu bilən atasının yanında) elm öyrənməyə sərf edən Məhəmməd Baba tibb, fəlsəfə, riyaziyyat, astoronomiya, ədəbiyyat, hədis və digər elimləri, eləcə də ərəb dilinin qrammatikasını mükəmməl öyrəndi.

Atası dünyasını dəyişəndə Məhəmməd Baba onun xəlifəsi olaraq fəaliyyətə başladı. Acıdərə və ətraf kəndlərin Şeyxi olan Şıx Məhəmməd həm də cümə günləri təşkil edilən və "Cəzbə" adlanan zikir mərasimlərini idarə edir və müridlərə rəhbərlik edirdi.

Şirvan elindən, Şəki ərazisindən, Dağıstan mahalından olan yüzlərlə mürid cümə günləri Acıdərəyə toplaşar, mürşidləri Şıx Məhəmməd Babanın söhbətlərini həvəslə dinləyər, zikirlərində iştirak edərək, vəcdə gələrdilər.

Şıx Məhəmməd Baba Acıdərədə ilk dəfə mədrəsə açmağa müvəffəq oldu. Həm öz kəndlərindən, həm də ətraf kəndlərdən olan uşaqları bu mədrəsəyə cəlb edərək, atasından və digər alimlərdən öyrəndiyi elmi onlara öyrətməklə savab qazanırdı.

Şıx Məhəmməd Babanın fəaliyyəti Rus hökümətinin daimi nəzarətində olub. Cümə namazına çox adam toplaşmasına hökümət tərəfindən qadağa qoyulubmuş. Şıx Məhəmməd Baba bir müddət Bakıda Qubernatorun nəzarətində saxlanılır. Hər gün Bakıda olduğunu təsdiq etmək üçün imza atırmış. Qubernatorun uşağı sağalmaz xəstəliyə tutulur. Uşağın anası övliyadan üzr istəyir ki, ərim səni incitdiyinə görə uşağımız xəstələnib. Deyir sən dibində dəstamaz aldığın quru ağac göyərdi. Ondan bildim ki, övliyasan. Bizi bağışla və uşağıma dua elə. Beləliklə həmin qadın Məhəmməd Babanın azad olmasına nail olur.

Şıx Məhəmməd Baba İslam dininin gözəlliklərini müridlərinə və tələbələrinə öyrətməklə yanaşı, öz əxlaqı, təqvası, elmi, mərifəti, səxavəti və kətamətiylə bu gözəlliyin nümunəsi olmuşdur. Məhz bu xüsusiyyətlərinə görə insanların sevimlisi olan Məhəmməd Baba həm də Haqq dərgahında övliyalıq məqamına yüksəlmişdi. Duaları Allah tərəfindən qəbul edildiyindən, insanlar daim ziyarətinə gəlirdilər.

## Ərəboğlu imtahana çəkildi

Bir gün Məhəmməd Babanın “Ərəboğlu” ləqəbli müridi Qubaya getmək üçün mürşidindən icazə istədi. Baba icazə verərək dedi get, orada çətinə düşsən Şıxı və məni köməyə çağıra bilərsən.

Ərəboğlu Qubada günorta namazını qılmaq üçün məscidə gəlir. Burada onun kimliyi ilə maraqlananda deyir: Şıx Eyyub Babanın oğlu Məhəmməd Babanın müridiyəm və başlayır onların kəramətlərindən bəhs etməyə. Buradakı mollalar deyirlər əgər danışdıqların doğrudursa, onda mürşidlərini çağır, kəramətlərini göstərib, Qubaya yağış yağdırsınlar. Cünki burada çoxdandır yağış yağmadığından əkinlər quruyur.

Çıxılmaz vəziyyətdə qalan Ərəboğlunun yadına düşür ki, müridi icazə verərkən demişdi ki, dara düşsən Şıxı və məni çağırarsan. Odur ki, iki rükət namaz qılıb, Allahı, Şıx Eyyub Babanı və Şıx Məhəmmədi köməyə çağrıb, yağış yağmasını istəyir. Bu vaxt Babadağın başından - Həzrət Baba ziyarətgahı tərəfdən bir topa qara buludun gəldiyini görürlər. Həmin gün yağış Qubadakı bütün əkinləri suvarır.

Ərəboğlu sevincək Acıdərəyə qaydır. Mürşidinin qapısından girəndə, Məhəmməd Baba onu qabaqlayıb, deyir: mən hiss etdim ki, Qubada səni imtahana çəkirlər, atamın, Həzrət Babanın ruhlarını çağırdım ki, sənə kömək olsunlar, oldularmı?

Ərəboğlu mürşidinin əlindən öpərək, əhvalaatı olduğu kimi danışır.

Bu əhvalat yadıma Mövlana Cəlaləddin Ruminin tələblərinə vəsiyyətini saldı.

*Mövlana vəfatından əvvəl tələbələrini topladı, şəfqətlə onlara baxdı və:*

*- Vəfatımdan sonra pərişan və hüzursuz olacaqsınız deyə düşünməyin. Hansı halda olursunuz olun, mənimlə olun! Məni xatırlayın, Allahın izni ilə özümü sizə*

*göstərər, maddi və mənəvi yardımlar edərəm. Quruda və dənizdə Allahın izni ilə yardımınıza çataram. Sözlərimi yaxşı dinləyin! Sizə bəzi tövsiyələr edəcəyəm. Bunları eşidənlər eşitməyənlərə söyləsin! Gizli və aşkar Allahdan qorxun! Günahlardan çəkinin! Az yeyib, az yatıb, az danışın! Çox oruc tutun! Zamanınızı namaz qılaraq dəyərləndirin! Şəhvəti tərk edib, səfeh və cahillərlə mücadilə etməyin! Onlarla oturub – durmayın! Onları özünüzə həmsöhbət etməyin, daim yaxşı insanlarla bərabər olun! Ya xeyirli danışın, ya da susun! İnsanların sıxıntılarına səbr edin və bilin ki, insanların ən xeyirlisi insanlara ən xeyirli olanıdır.*

## Övliyanın dəfn mərasimi də möcüzəli oldu

Şıx Məhəmməd Baba Naburda dünyasını dəyişdi. Onu atasının yanında dəfn etmək üçün Acıdərəyə yola düşdülər. Yol uzaq olsa da müridlər tabutu çiyinlərində gətirməkdən şərəf duyurdular. Bu vaxt Allah da öz dostuna olan məhəbbətini nümaiş etdirdi: bir dəstə bəzəkli kəpənək Şıxın tabutunun üstünə qondu. Onlar o qədər sıx qonmuşdular ki, o qədər rəngbərəng xalları, bəzəkləri vardı ki, sanki tabuta kəpənəkdən canlı, bir örtük çəkilmişdi. İnsanlar 20 - 25 km yolu bu ecazkar mənzərəni hikmətli möcüzəni izləməkdən zövq aldılar.

Şıx Məhəmməd Babanın qəbri Acıdərədə atasının qəbirinin yanındadır. Onun Babakişi və Əhmədpaşa adında iki oğlu olmuş, Babakişi atasının sağlığında rəhmətə getmişdi.

# ŞIX ƏHMƏDPAŞA BABA

Şıx Məhəmməd Baba dünyasını dəyişəndən sonra, yolunu elm və iman sahibi Əhmədpaşa Baba davam etdirdi. O, Şamaxı Xanlığının Acıdərə obasında doğulub. İlk təhsilini atasının mədrəsəsində alan Əhmədpaşa 18 yaşında Türkiyədə Ali ruhani məktəbinə daxil olmuşdur. Burada təhsilini başa vurduqdan sonra elmin sirlərinə daha dərindən yiyələnmək üçün Bağdad Ali ruhani məktəbinə daxil olur. Nəhayət Şeyx titulunda doğulduğu Acıdərə obasına qayıdaraq, burada müridlərə rəhbərlik etməyə başlayır.



***Şeyx Əhmədpaşa Baba***

Şeyx Əhmədpaşa Baba təkcə dini təbliğ etməklə kiyafətlənmir, həm də heyvandarlıq və əkinçiliklə məşğul olurdu. Bu yolla böyük var-dövlət sahibinə çevrilən Şeyx geniş xeyriyyəçilik fəaliyyəti ilə məşğul olaraq, xalqın sevimləsinə çevrilmişdi.

## Şıxın nüfuzu hökuməti narahat edirdi

Əhmədpaşa Baba dövrünün bir çox ziyalıları, eim və din xadimləri ilə dostluq etmiş, yeri gəldikcə onlara maddi və mənəvi dayaq olmuşdur. Onun günbəgün artan nüfuzu Rus

hökumətini narahat edirdi. Təkcə Şirvanda deyil, ətraf Xanlıqlarda da böyük nüfuza malik olan, ətrafında minlərlə müridi, əlində böyük miqdarda var - dövləti olan vətənpərvər bir Şeyxin fəaliyyəti Rus hökümətini narahat etməyə bilməzdi. Odur ki, Şeyx Əhmədpaşa Babanı şərləmək üçün fəaliyyətə keçdilər. Nəhayət pristav Nəcəf adlı bir agentin əliylə Şeyxi şərləməyə nail oldu. Belə ki, Nəcəf heyvanlarını Şeyxin torpağında otarmağa başlayır. Əhmədpaşa Baba nə qədər desə də Nəcəf heyvanları sahədən çıxarmır. Şeyx qulluqçusuna deyir get onun kəlinin birini tut gətir, gəlib evimizdən aparar, həm də məsələni aydınlaşdırarıq görək mənim torpağımı niyə otarır. Qulluqçu kəli aparan kimi, Nəcəf onların uzaqlaşdığını görüb, yerdə qalan iki baş kəlin başını kəsir və piristavın yanına qaçır. Deyir Şeyx Əhmədpaşa məni qarət etdi, bir baş kəlimi oğurlayıb apardı, ikisinin də başını kəsdi. Pristav sevincək halda nümayəndələrini göndərdi. Gördülər ki, həqiqətən də Nəcəfin iki kəlinin başı kəsilib. Üçüncü kəli Şeyxin heyvanlarının içində tapanda planlarının baş tutduğuna sevindilər.

Beləliklə 1888-ci ildə Şeyx Əhmədpaşa Babaya on il iş kəsərək, Rusiyaya sürgün etdilər.

Şeyx həbsxanada çox böyük nüfuza malik idi. Belə ki, dustaqlar xəstələnəndə ona müraciət edər, o da əl çəkməklə, dua etməklə onlara şəfa verər və rəğbət qazanardı. Hətta türmə rəisinin də əlində olan yaranı üfürməklə sağaltmışdı. O, təxminən 1896-cı ildə Yaroslavlda dünyasını dəyişdi. Vəsiyyətinə uyğun olaraq, Tambovdakı tatar - müsəlman qəbiristanlığında dəfn olundu.

Şeyx Əhmədpaşa Baba dünyasını dəyişəndə onun Səltənət xanım və Minəxanım adlı qadınlarından olan övladları Ağaxan, Alxan, Soltanmahmud və Zeyvə hələ yetkinlik yaşlarına çatmamışdılar.

## Əhmədpaşa Babanın ruhu məni ölümdən qurtardı

Şamaxının Avaxıl kəndindən olan və XX əsrin 30-cu illərində Stalin repressiyasına məruz qalan Alıəhməd kişi sürgündən sağ qayıtmasının səbəbkarı kimi Allahdan aşağı Şıx Eyyub Babanın törəmələrini göstərərmiş. Belə ki, Alıəhməd kişi övladlarına və yaxınlarına danışırmış ki, sürgündə olarkən, işlədiyi kömür şaxtası uçmuş, mədəndə olan bütün fəhlələr ölmüşlər. Onun özü isə qırx gündən sonra torpaq altından sağ-salamat çıxarılmışdı. Bu müddətdə torpaq altında sağ qalmasının möcüzəsindən danışarkən deyirmiş ki, Şıx Eyyub Babanın nəslindən olan kəramət sahiblərinin ruhları, ələlxüsus da Əhmədpaşa Babanın ruhu onu tək qoymurmuş. Sonda Əhmədpaşa Baba yanındaki uşağı Alıəhməd kişiyə göstərib: “Bu mənim nəvəmdir, əlini ver, o səni xilas edəcək” deyir. Elə həmin gün də (uçqunun qırxıncı günü) kömür şaxtası qazılır və torpaq altında qalan fəhlələr (daha doğrusu cəsədlər) çıxarılır. Burada möcüzə sayəsində yeganə sağ qalan Alıəhməd kişi olur. Yaxınlarının dediyinə görə Alıəhməd kişi ölənə qədər bu ocağı sevə - sevə ziyarət edir və övladlarına da bu ənənəni davam etdirməyi tapşırır.

# HACI HƏMİDPAŞA BABA
## *(Hacı Şıx )*

Şıx Eyyub Baba yolunu davam etdirənlərdən biri də nəticəsi Həmidpaşa Baba olmuşdur. O, 1860 - cı ildə Acıdərədə doğulub. Atası kəramətli övliya olan Şıx Babakişi Anaxanım və Tükəzban adlı iki qadınla evlənmişdir.



***Hacı Həmidpaşa Baba***

Təhsilini əmisi Əhmədpaşadan alan Həmidpaşa, onun yolunu davam etdirərək, Şeyxlik məqamına yüksəlmişdir. Əmisi həbs olunandan sonra müridlərə rəhbərlik etmişdir. Əmisi qızı Zeyvə xanımla ailə quran Həmidpaşa Babanın hər gün yüzlərlə ziyarətçisi olurmuş. Ziyarətçilərin heç birini çörək yeməmiş buraxmazmış. Həyat yoldaşının söhbət etməsinə görə adi günlərdə 14-16 kq yağın yeməyi bişirilərmiş. Cümə günləri isə Şeyxin başına minlərlə mürid toplaşarmış. Bütün bu müridlərin və qonaqların xərcini ödəmək üçün o, çoxlu sayda heyvan sürülərinə və əkin sahələrinə malik idi:

Nəhayət Həmidpaşa Baba əmisi oğlu və qaynı Ağaxanı da götürüb Həcc mərasimini yerinə yetirmək üçün müqəddəs Məkkə şəhərinə yola düşdü. Kürdəmir dəmir yol stansiyasından Tiflis qatarına mindilər. Ucar stansiyasında qatar dayananda,

burada dəllək işləyən bir nəfər Həccə gedənlərə uğur diləyərək, dedi neçə ildi mən də ziyarətə getmək istəyirəm, amma lazım olan məbləği hələ toplaya bilməmişəm. Şıx soruşub ki, evin yaxındadır? Deyir bəli. Deyib get evdəkilərlə halallaş, tez gəl min qatara. Evdən pul götürmə, bütün xərclərin mənim boynumadır.

Beləliklə dəlləyi də özüylə götürüb, Batumi (və yaxud Poti) limanına, oradan da dəniz yolu ilə Türkiyədən keçməklə Məkkə şəhərinə çatdılar.

Həcc ziyarətini tamamlayan övliya bazarı gəzməyə başladı. Burada bir qulun qiyməti ilə maraqlandıqda, yanındakılar: “Qocadır, alma” – dedilər. Satılan qoca qul əllərini göstərərək: “Noolsun qocayam, əlim, ayağım hamısı salamatdır” - dedi:

Hacı Həmidpaşa Baba qul sahibinin pulunu ödəyərək, həmin qoca qulu aldı və oradaca azad etdi.

Bu əhvalat yadıma Loğman Peyğəmbərin oğluna nəsihətini saldı: “***Dedi:” Oğlum,*** *(dünyada gördüyün hər hansı yaxşı, yaxud pis iş)* ***bir xardal dənəsi ağırlığında olsa da, bir qayanın içində, yaxud göylərdə və ya yerin təkində olsa da Allah onu ortaya gətirər*** *(əvəzini verər)*. ***Allah bütün xırda*** *(və yaxud iri)* ***işləri biləndir, hər şeydən xəbərdardır!***” (“Loğman” 16 )

Bu ayəni təsadüfən xatırlamadım. Allah bütün etdiyi əməlləri insanın qarşısına çıxarır. Hacı Həmidpaşa Babanın da etdiyi yaxşılıq səfərdən qayıdanda qarşısına çıxdı. Belə ki, mindikləri gəmi qara dənizdə qəzaya uğradı. Odessa limanına yük aparan bir gəmi onlara köməyə gəldi. Hacı Şıx və ona yaxın olan bir

neçə nəfər həmin gəmiyə mindilər. Qalanlar minmədilər ki, Odessa limanı uzaqdır, biz başqa gəmiyə minmək istəyirik. Beləliklə Həmidpaşa Babanın mindiyi gəmi bir qədər aralandıqdan sonra, həmin qəzaya uğrayan gəmi tamamilə dənizin dibinə çökdü və sərnişinlərini də xilas etmək mümkün olmadı.

Hacı Şıx dövrünün bir çox ziyalıları və ictimai xadimləri ilə dostluq etmişdi. Belə ki, Abbas Səhhətlə onun yaxın dostluq münasibətləri olmuşdu. Abbas Səhhət həm də Həmidpaşa Babanın ailə həkimi idi. Hacı bir gün Gəncəyə səfər edəndə, Abbas Səhhətin həmin gün dünyasını dəyişdiyini eşidir və cənazə mərasimində iştirak edir. O, həm də öz dostunun dəfn xərcini ödəmək üçün ailəsindən icazə alır.



*Hacı Həmidpaşa Baba (ortada), oğlu Mustafa Baba (solda), Müridi Gülalı ilə*

## Səməd Vurğunun adını Hacı Şıx qoyub

Hacı Həmidpaşa Babanın yaxın dostlarından biri də Səməd Vurğunun atası Yusif Vəkilov idi. Onlar tez - tez biri - birinə qonaq gedər, gecə səhərə qədər oturub dərdləşərdilər. 1906-cı ilin mar-

tında övliya Qazaxa qonaq gedəndə dostu Yusif deyir yaxşı gəlmisən, üç gündür oğlum olub, arzulayırdım ki, gəlib adını sən qoyasan. Hacı deyir üç ay bundan qabaq mənim oğlum olmuşdu, adını Səmid qoydum, bu uşağı da adını Səməd qoyuram.

Övliyanın qoyduğu ad dostunun oğluna düşür və böyüyəndə Səməd Vurğun adlı tarixi şəxsiyyət olaraq, insanların sevimlisinə çevrilir.

Hacı Həmidpaşa Baba İsveçrəyə səfərə gedibmiş. Mağazada 58 qızıl onluğa satılan birilyant qaşlı üzüyü alır. Sonra Peterburqa gəlir, həmin üzükdən burada 50 qızıl onluğa satıldığını görür. Həmin üzüyün birini də əmisi oğlu Alxan bəyə alır. Həmin üzük bu gün də durur və xeyir iş edən adamlar onu nişan üzüyü kimi gəlinin barmağına taxaraq, bunu xoşbəxtlik rəmzi sayırlar.

Hacı Həmidpaşa Baba Hacı Mecid Əfəndi ilə birlikdə 1905-ci ildə quduzlaşmış erməni kafirlərinin Şamaxıda talanlar törətməsinin qarşısını almışdır.

Şamaxıda baş verən zəlzələdə də Hacı Şıxın necə böyük səxavətə malik olması üzə çıxdı. Belə ki, o, evsiz - eşiksiz qalan və ailə başçısını itirən yüzlərlə ailəni şəxsi himayəsinə götürüb, onları yemək və geyimlə, evlə təmin etdi.

Acnacaqlı haldır ki, çar hakimiyyətinin süqutundan iki il sonra Azərbaycan milli höküməti də süqut etdi və yeni qurulan Sovet höküməti din xadimlərinə, varlı adamlara qarşı mübarizəyə, repressiyalara başladı. Rus bolşevik hökumətinin müsəl-

manlara qarşı apardığı repressiya siyasəti Hacı Həmidpaşa Babadan da yan keçmədi. 1920-ci illərin sonlarında onu 60 nəfər əsilzadələrlə birlikdə həbs edirlər. Onlardan 59-u güllələnsə də, təkcə Hacı Şıx sağ qayıtdı.

Onun sürgündə olduğu müddətdə əmisi oğlu Alıxan bəy rəhmətə gedir. Hacı Şıxa icazə alıb evə gətirirlər. İcazə müddəti başa çatmamış onu geri çağırırlar. Qaydan gün onu yola salmaq üçün Şirvanın hər yerindən minlərlə müridlər və övliyasevərlər toplaşırlar. Lakin Xuduş adlı bir milis işçisi imkan vermir ki, Hacı Həmidpaşa Baba camaatla görüşsün. Belə olduqda Şıx həmin mərdümazar adamı qarğıyıb: "Səni görüm iylənəsən" deyir. Çox keçmir ki, Xuduşun bütün bədəni yara səpir. Çox çalışsalar da, dərdinə dərman tapa bilmirlər. Yay vaxtı yaraları iyləndiyindən, aparıb çayın qırağına qoyurlarmış.

## Kəpənəklər qəbri açmağa qoymadılar

Hacı Şıx 1918-ci ildə erməni qırğını vaxtı ailəsini Zərdab rayonunun Alıcanlı kəndinə qoymuşdu. Qaydanda yolda həyat yoldaşı və əmisi qızı Zeyvə xanım dünyasını dəyişir. Onu müvəqqəti, Ağsu rayonunun Gədəli kəndində torpağa tapşırırlar ki, sonra gəlib aparsınlar. Sonra Hacı Şıxın etiraz etmısinə baxmayaraq, Zeyvə xanımın qardaşları Hacı Ağaxan və Soltanmahmud Baba bacılarının cənazəsini gətirib kəndlərində dəfn etmək üçün yola düşürlər. Amma nə qədər çalışsalar da, qəbri aça

bilmirlər. Çünkü qeyri adi gözəlliyə malik olan bəzəkli kəpənəklər o qədər six, o qədər çox sayda Zeyvə xanımın qəbirini mühafizə edirdilər ki, onları yarıb, məzara yaxınlaşmaq mümkün olmadı. Başa düşdülər ki, Həmidpaşa Babanın etirazı əbəs deyilmiş. Beləliklə səhərdən axşamacan məzarın ətrafında gözləyib, axırda əliboş geri dönürlər.

## Övliyanın atı çayı uçaraq keçdi

Hacı Şıxın böyük oğlu Soltanməcidin toyu yeddi gün davam etdi. Toya Şirvanın bütün obalarından qonaqlar gəlmişdi. O vaxtlar toyda at çapıb, məharət göstərmək adət idi. Odur ki, qonaqlar Hacı Həmidpaşa Babadan at çapmağı xahiş edirlər. Çünki o dövrün ən məhşur atı və at sürmək məharəti Hacı Şıxa məxsus idi. Xahiş edənlərin sırasına Şirvanın Qazisi Hacı Məcid Əfəndi də daxil olanda Şıx etiraz edə bilmədi.

Beləliklə, məhşur "Qara Ürgə" meydana gətirilir. Qara zurnanın sədaları altında at coşaraq, Acıdərə çayına tərəf üz tutur. Çayın sağ sahili sıldırım qaya olduğundan, toplaşanlar qorxdular ki, at övliyanı dərəyə yıxacaq. Odur ki, hamı atın ardıyca çaya tərəf qaçdı. Sahilə çatanda heyrətdən donub qaldılar: Şıx atın belində çayın içi ilə geriyə - sol sahildən, artıq sağ sahilə qayıdırdı.

Övliyanın belində olmasından vəcdə gələrək, çayı uçaraq keçən "Qara Ürgə"nın bu şücaəti yadıma Quranın "Qaçan atlar" surəsini saldı:

**"And olsun tövşüyə-tövşüyə qaçan atlara",**

**"And olsun (daşdan) qığılcım qoparan atlara"**.(1, 2-ci ayələr)

Qeyd edim ki, Hacı Şıxın Zeyvə xanımla nigahından Soltanməcid, Məhəmməd, Rzaxan, Eyyub, Səmid, Mustafa və Səlim adlı yeddi oğlu olmuşdu.

Bir müddətdən sonra Nənəqız xanımla ailə quran Hacı Həmidpaşa Babanın Şahbaz və Soltanpaşa adında iki oğlu, Camalxanım adında bir qızı olmuşdur.

Hacı Şıx 1932-ci ildə dünyasını dəyişdi. Qəbri - şərifi Acıdərədə Şıx Eyyub Babanın günbəzinin yanındadır.

# HACI AĞAXAN BABA

Şıx Eyyub Baba nəslinin kəramətli davamçılarından biri də Hacı Ağaxan Əhmədpaşa Baba oğludur. O, 1875-ci ildə Şamaxının Acıdərə obasında doğulub. İlk təhsilini atası Şeyx Əhmədpaşadan alan Ağaxan elm, iman və mərifət sahibi kimi xalq arasında böyük hörmət qazanmışdı.

Gənc yaşlarında əmisi oğlu Hacı Həmidpaşa Baba ilə bərabər Həcc ziyarətində olan Ağaxan Baba, sonralar Mədinədə və Kərbalada olan müqəddəs əcdadlarını ziyarət etdi.

Yaşa dolduqca kəraməti artan Hacı Ağaxan Baba artıq el-obanın məsləhət yerinə, inanc yerinə çevrilirdi. Ziyarətinə gələnlərə əl çəkər, dua edər, yeri gələndə təbii otlardan, çiçəklərdən məlhəm düzəldib, xəstələri bu yolla da müalicə edərdi.

Hacı Ağaxan Baba cümə günləri keçirilən zikr mərasimlərində qaratikan kolunu yerə səpər və zikr edə-edə ayaqyalın həmin kolun üstündə gəzərmiş. Heyrətləndirici cəhət o imiş ki, övliyanın ayağı qanamazmış-yəni onun ayağına tikan batmazmış.

Babanın Heybət Ağayev adlı həmkəndlisini Dövlət Təhlükəsizlik Komitəsinin əməkdaşları axtarırmışlar. 1938-ci ilin qanlı repressiya günləri imiş. Bir gün Heybət Hacı Ağaxan Babanı ziyarətə gəlir ki, ələ keçməməsi üçün dua etsin. Onlar övliyanın evinin yanında yolun qırağında görüşürlər və ayaqüstü söhbət edərkən, birdən görürlər dörd nəfər Təhlükəsizlik Komitəsi işçisi at belində bunlara çatıblar. Ağaxan Baba görür ki, Heybətin rəngi qaçdı,

deyir qorxma, onlar yanımızdan keçib gedəcəklər, səni görməyəcəklər. Elə də olur. DTK işçiləri onların yanından keçir, amma söhbətə başları elə qarışır ki, axtardıqları Heybət Ağayevin qarşılarında durduğunu görmürlər.

Hacı Ağaxan Baba bir gün yay aylarında qonşu Sündü kəndinə gedibmiş. Görür kənd ağsaqqaları xırmana toplaşıb, çox bikef oturublar. Baba salam-kəlamdan sonra soruşub ki, niyə belə bikefsiniz? Deyirlər çoxdandır yağış yağmır, əkinimiz zay olub, gedir. Xahiş edirlər ki, yağış üçün dua etsin. Baba dəstamaz alıb, xırmanda iki rükət namaz qılır və yağış üçün Allaha müraciət eləyir. Ağsaqqalların danışdıqlarına görə həmin gün başlayan yağış bir neçə gün yağaraq bütün əkinləri suladı.

*Bu əhvalat yadıma Musa Peyğəmbər haqqında bir hədisi saldı.*

*Allah Bəni İsrailə yeddi il qəhətlik bəxş etdi. Musa yetmiş min nəfərlə yağış istəmək üçün müsəllaya çıxdı. Xitab gəldi: Ey Musa, Mən bunların dualarını necə qəbul edim, halbuki günahlar onların üzərinə kölgə salmışdır. Batinləri isə xəbis və çirkindir. Mənə dua edirlər, lakin yəqinlikləri yoxdur. Özlərini də Mənim cəzamdan amanda hesab edirlər. Mənim bəndələrimdən Bərx adlı bir nəfərin yanına qayıdıb de ki, gəlib dua etsin, Mən də qəbul edim ( Qudsi hədislərindən).*

Hacı Ağaxan Baba müxtəlif vaxtlarda Gülara, Quba və Güllü adında xanımlarla ailə qurmuş, Ənvərpaşa və Nüsrət adında iki övladı olmuşdu.

Hacı Ağaxan Baba 1942-ci ildə Haqqın rəhmətinə qovuşdu. Qəbri Acıdərədə Şıx Eyyub Babanın günbəzinin yanındadır.

# ALIXAN BƏY

Eyyub Baba yolunun davamçılarından biri də nəticəsi Alıxan Bəy olmuşdur. O, 1881-ci ildə Şamaxı Xanlığının Acıdərə obasında dünyaya gəldi. Atası görkəmli övliya Əhmədpaşa Baba haqqında yuxarıda söhbət açdıq. Anası isə Səltənət xanımdır.



***Alıxan bəy***

Alıxan Bəy təhsilini Babasının açdığı mədrəsədə almış, sonra isə elmin sirlərini daha dərindən öyrənmək üçün İstambul Universitetinə daxil olur. Universiteti uğurla bitirib Şamaxıya qayıdan Alıxan Bəy dövrünün savadlı, zəkalı, alicənab, xeyirxah ziyalısı kimi xalq arasında böyük nüfuz qazandı. Onda övliyalara məxsus humanistlik, zəhmətkeşlik, iman və kamillik vardı. O hündürböy, iri gövdəli adam olub. Boyu 2 metr 4 sm, çəkisi 150 kq-dan çox idi. Zahirən çox zəhimli adam olub, iri ala gözləri, enli alnı vardı. Hansı atı minirdisə at ağırlığına tab gətirməyib yıxılırdı. Sonradan sarı rəngli bir cins at tapdı ki, onun ağırlığına davam gətirdi.

1902-ci ildə Şamaxıda baş verən dəhşətli zəlzələdən xalq sarsıntı keçirəndə, Alıxan Bəy ağsaqqallıq və comərdlik nümayiş etdirərək, xalqı sıxıntıdan qurtarmaq üçün qüvvə və bacarığını, var-dövlətini əsirgəmədi. Həmin vaxt Qəza İcraiyyə

Komitəsinin üzvü olan Alxan Bəyin xahişi ilə yerli tacirlər, bəylər və digər imkanlı adamlar Şamaxının yenidən bərpası üçün xeyli vəsait verdilər.

1918-ci ildə kafir ermənilər Azərbaycan müsəlmanlarına qarşı çox böyük soyqırım törətdilər. Həmin vaxt Şamaxıya da hücum edən kafirlər müsəlmanların evlərini, məscidlərini, dükan və bazarlarını yandırır, qadına, uşağa, qocaya, cavana baxmadan hamını güllələyirdilər. Belə bir çətin məqamda Alıxan bəy başına dəstə toplayaraq, kafirlərə müqavimət göstərməyə başladı. Həmin ilin matr ayında Nuru Paşanın komandanlıq etdiyi türk ordusu Şamaxıya gələndə onları qarşılayanlardan biri də Alıxan bəy idi. O, türk əsgərlərinin müxtəlif yerlərdə yerləşdirilməsində, ərzaqla təminatında bütün qüvvəsini sərf edirdi. Hətta əsgərlərdən bir hissəsini öz evində yerləşdirdi. Eyni zamanda yerli əhalini erməni və malakan kafirlərinə qarşı səfərbər edirdi.

1918-ci ildə Azərbaycanda Məhəmmədəmin Rəsulzadənin rəhbərliyi ilə milli hökümət yarananda Alıxan Bəy Şamaxıda da bu hökümətin möhkəmlənməsi üçün əlindən gələn köməyi göstərdi.

İyirminci illərdə su təsərrüfatı sistemində işləyən Alıxan Bəy neçə-neçə kəndə, obaya, məhəllələrə su kəməri çəkdirmiş, bulaqlar tikdirmişdi.

Alıxan Bəy 1929-cu ildə 48 yaşında dünyasını dəyişdi. Qəbri Acıdərədə Şıx Eyyub Babanın qəbrinin yanındadır.

Onun Həcər xanımla nigahından Böyükxanım, Baratxanım, Ziyatxan, Böyükağa, Şahnəzər, Bayram, Nazilə, Xosrov və Ayna adında övladları qaldı.

# SOLTANMAHMUD BABA

Şıx Eyyub Babanın yolunu davam etdirənlərdən biri də nəticəsi Soltanmahmud Baba olub. O, Əhmədpaşa Babanın oğlu olmaqla, 1885-ci ildə Şamaxının Acıdərə obasında dünyaya gəlib. Anası Minəxanım Ağabəy qızı Təkləmirzəbaba kəndindən olan bəy qızı idi.



*Soltanmahmud Baba*

İlk təhsilini yeddi yaşından başlayaraq Şamaxı Mədrəsəsində Hacı Mecid Əfəndidən alan Soltanmahmud sonradan Ali təhsil almaq ücün Misirə yola düşür. Atası Əhmədpaşa Baba özü elm adamı olduğundan, oğlunu da elm adamı kimi görmək istəyirdi. Odur ki, Soltanmahmud baba Misirin Ali ruhani məktəbində ərəb dili ilə yanaşı  kimya, biologiya, tibb, riyaziyyat, astranomiya ədəbiyyat və sair elmləri mükəmməl mənimsəyərək vətənə kamil bir elm adamı kimi döndü.

Soltanmahud Baba  elm sahibi olmaqla yanaşı, həmdə iman, təqva və mərifət sahibi olduğundan, artıq övliyalıq səviyyəsinə yüksəlmişdi. Duası Allah dərgahında rədd olunmadığından  insanlar cətin anlarında, sıxıntılı vaxtlarında onun adını tutar, ziyarətinə gəlib  dua etməyi xahiş edərdilər.

Soltanmahmud Baba kəramət sahibi övliya olmaqla yanaşı, həm də gözəl ailə başçısı idi. O, Zərdabın Alıcanlı kəndindən Ağalar Bəyin qızı Mələk xanımla ailə qurdu. Onların nigahından Soltanəhməd, Səhrab, Almara, Təbriz, İrşad, Nazim, Fazil, Qüteyis, Ceyhun adında övladları olmuşdur.

**Övliya mühasirədən necə cıxdı**

1937-ci ilin refresiyaları bütün din xadimləri və övliyalar kimi Soltanmahmud Babadan da yan kecmədi. Lakin o, təqiblərdən öz kəramət və Allahın izni ilə yayına bilmişdi. Belə ki, bir gün o kənd sovetinin sədri Bahar xanımın evində oturub cay icrirmiş. Birdən Milis, Prokurorluq və Təhlükəsizlik Komitəsinin işçiləri evi mühasirəyə alırlar ki, axtarışda olan Şıxı həbs etsinlər. Bahar xanım qorxiya düşür. Bilirki, Şıxı həbs edəndə onu da işdən cıxarıb cəzalandıracaqlar ki, övliya ilə oturub durur. Onun təlaşlandığını görən Soltanmahmud Baba deyir qorxma, onlar nə məni nə də səni görəcəklər. Baba atını minir, darvazadan çıxıb gedir. Amma orada dayanan hökümət adamları Allahın izni olmadığından onu görə bilmirlər. Nəhayət həyəti mühasiərəyə alanlar içəri daxil olub evdə axtarış aparacaqlarını deyirlər. Lakin çox axtarsalar da övliyanı tapa bilmirlər. Verilən məlumatın yanlış olduğunu zənn edib qayıdırlar.

## Türmənin qapısı bağlanmadı

Bir müddətdən sonra Soltanmahmud Babanı Keyil dağındakı qışlağında (indiki Umbakı qəsəbəsində) həbs edib, yüzdən cox məhbusla birlikdə Şamaxıya istiqamət götürürlər. Uduluda gecələmək ücün məhbusları bir tövləyə doldururlar. Orada kənd sovetinin sədri Cəbrayıl kişi övliyanı bir gecəliyə zaminə götürüb,evində saxlayır. Şıx həmin gecə evinə xəbər göndərir ki, heyvanlardan kəsib 150 nəfərlik yemək hazılasınlar sabah Acıdərənin qarşısından kecəndə dayanıb orada çörək yeyəcəyik.

Məhbuslar sabah Acıdərinin yanından keçəndə mühafizəçilər Şıxa dedilər get ailə üzvülərinlə görüş gəl. Şıx dedi getmirəm, elə burada birlikdə çörək yeyib, sizinlə gedəcəm.

Nəhayət Şamaxıya çatdılar.Soltanmahmud Babanı hansı kameraya saldılarsa, qapısını bağlaya bilmədilər. Rəis Şabanbekov bu barədə Moskvadan gələn Təhlükəsizlik Komitəsinin işçilərinə məlumat verdi. Müzakirələr zamanı belə qərara gəldilər ki, övliyanı zanimə buraxsınlar. Beləliklə Soltanmahmud Baba həbsdən xilas oldu.

## Nəriman Nərimanov övliyanın intellektual səviyyəsinə heyran qaldı

Soltanmahmud Babannın görənləri heyran qoyan, məşhur kəhər atı vardı. Bir gün Şıx Bakıdan qatarla gəlib Kürdəmirin Sığırlı stansiyasında düşdü. Onun

üçün gətirilmiş kəhər atın belinə minəndə, at sanki vəcdə gəlib, quş kimi qanadlanıb uçmağa başladı. Vaqonun pəncərəsindən bu mənzərəni heyranlıqla seyr edən Nəriman Nərimanov atın sahibi ilə tanış olmaq istədi. Muhafizəçiləri havaya atəş açaraq, Babanı saxlatdılar və Nərimanovun oturduğu vaqona dəvət etdilər. Onlar xeyli söhbət etdilər. Nərimanov Soltanmahmud babanın elminə, mərifətinə və intellektual səviyyəsinə heyran qaldı. Söhbətin sonunda ona öz imzası və möhürü ilə bir məktub verdi. Məktubda qeyd etdi ki, bu atı sahibindən heç bir halda almasınlar.

Görünür N.Nərimanov bolşevik silahdaşlarının qiymətli hər şeyi məhv etdiyindən ehtiyatlanaraq, bu yaraşıqlı Kəhər atı qorumaq qərarına gəlmişdi.

Məktub kəhər atı bir müddət qorudu. Belə ki, Şamaxıya gələn müxtəlif vəzifə sahibləri həmin dövrdə nəqliyyat vasitəsi kimi ancaq atdan istifadə etdiklərindən, Şirvanın ən adlı-sanlı və məşhur atı olan Kəhər ata sahib olmaq istəyirdilər. Ancaq bəziləri Övliyaya ehtiramdan, bəziləri də atı mühafizə edən məktub olduğundan bu fikirdən vaz keçirdilər.

Bu vəziyyət Nərimanovun zəhərlənərək öldürülməsinə qədər davam etdi. Nəhayət şamaxıya yeni təyin edilən Dövlət Təhlükəsizlik Komitəsi (Rusca NKVD adlanırdı.) sədri atın ona verilməsi üçün Soltanmahmud Babaya xəbər göndərdi. Baba Nərimanovun məktubunu ona göndərəndə, rəis artıq bu məktubun heç nəyə yaramadığını, məktubu imzalayanın öldüyü və “Xalq düşməni” elan olunduğunu

deyir. Beləliklə Kəhər atı zorla övliyadan alır. Lakin halallıq almır.

Beləliklə, indiyədək Allah dostunun minərək, Haqq yolunda sürdüyü Kəhər atı indi Allahı tanımayan bir bolşevik minib, hansısa bir günahsızı şərləməyə gedəsi olur. Lakin arzusu gözündə qalır. Belə haqsızlığa dözə bilməyən Kəhər atın elə birinci səfərində ürəyi partlayaraq, mənzil başına çatmamış, yarı yolda ölür.

**“And olsun o vaxt toz-duman qoparan atlara”** *“Qaçan atlar “ surəsi, 3-cü ayə.*

Soltanmahmud Baba 1945-ci ilin noyabrın 6-da axşamüstü  Haqqa qovuşdu. Ayın 7-də isə Acıdərədə ata -babaların yanında dəfn olundu.

Allah rəhmət eləsin.

# SOFİ HƏMİD PİRİ

Sofi Həmid piri qədim Bakı-Şamaxı karvan ticarət yolunun üstündə, indiki Şirvan rayonunun ərazisindədir. Sofi Həmidlə Şıx Eyyub Baba eyni nəsildəndrlər. Şıxın babasının babası Rzaxan Düşməlin (düşməl sözü qonaqpərvər deməkdir) qəbri Sofi Həmidin gümbəzinin yanındadır. Gümbəzin tikilmə tarixi dəqiq məlum olmasa da, memarlıq ünsürlərinə görə XIV əsrdən əvvəl tikildiyi güman edilir. Sofi Həmid sufiliyi təbliğ edən bir cərəyanın rəhbəri (mürşidi) olmuşdu. Pirin qarşısında daşdan yonulmuş dəvə heykəli onun ərəbstandan gəlməsinə işarədir. Yeri gəlmişkən qeyd edim ki, böyük övliya peyğəmbərimizin yaxın dostu Üveys əl Qəraninin (Veyis Babanın) qəbri Zərdab rayonunun ərazisindədir və onun da qəbrinin yanına VII əsrdə daşdan dəvə heykəli yonulub qoyulub. Bu heykəllər rəmzi məna daşımaqla, onların bura ərəb ölkələrindən gəldiklərinə işarədir.

Məqbərənin ətrafinda dəfn olunan qəbrlərin üzərindəki yazılardan məlum olur ki, onlar Sofi Həmidin müridləridir və sufiliyi təbliğ etməklə ömürlərini başa vurmuşlar. Bu yazılardan o da məlum olur ki, Sofi Həmid “Sultan” və “Seyyid” ləqəbi daşımışdır. Misirin tanınmış alimi əl-Qərqəşəndiyə görə “seyyid” ləqəbi böyüklük, yüksəklik və s. mənalarda adlı-sanlı məslək sahiblərinə verilirdi.

İctimai-dini mərkəzlərdən biri olan Sofi Həmid məqbərəsi xalqı öz arxasınca apara bildiyi üçün çar

Rusiyasının işğalçılıq siyasətinə zidd idi. Odur ki, bu abidələr dağıdılır,orada fəaliyyət göstərən şeyxlər ciddi təqib olunur, əksər hallarda Sibirə sürgün edilirdi.

Sovetlər dönəmində bu cür təqiblər daha da sərtləşdiyindən Sofi Həmidin ardıcılları mərkəz olaraq fəaliyyətlərini dayandırmaq məcburiyyətində qalmışlar.

Bütün bunlara baxmayaraq, Sofi Həmidin məqbərəsi xalq tərəfindən müqəddəs sayılıb, daim ziyarət olunur.



Sofi Həmidin məqbərəsi

# QURAN ELM MƏNBƏYİDİR

***Rəhman və Rəhim olan Allahın adı ilə***

Hələ ta qədimdən filosoflar dünya sirlərini üç şeydə – hərflərdə, notlarda və rəqəmlərdə axtarmışlar. Hərfləri və notları başqa alimlərin öhdəsinə buraxaraq bu gün biz dəyərli oxucularımızla birlikdə rəqəmlərdə olan hikmətləri araşdırıb, bir çox sirlərə vaqif olmağa və ulu Yaradanın elminin böyüklüyünü anlayıb, Onun qüdrətinin seyrinə dalmağa çalışacağıq.

## Bu dəryanın bir kənarı yoxdu, yox!

Dəryaya hamı baş vurur – naşı da, qəvvas da. Fərq ondadır ki, naşı baş vuranda dəryada boğulur, qəvvas baş vuranda dəryanın dibindən inci çıxarır. Elm də bir dəryadır. Həm də elə bir dəryadır ki, sonu yoxdur. Necə deyərlər bu dərya o dəryalardan deyil. Şair Nəbati demişkən "*Bu dəryanın bir kənarı yoxdu, yox!*" Hər gələn bu dəryaya bir baş vurur. Təbii ki, boğulan da var, inci çıxaran da. Mən də öz növbəmdə bir həvəskar araşdırmaçı olaraq Allahı çağırıb və Onun qüdrətinə sığınıb, istəkli oxucularımın müşahidəsi altında bu sonsuz dəryaya baş vurmağa qərar verdim. Məni bu cəsarətdə bulunduran Rəbbimin Qurani-kərimdə buyurduğu "*Allah istədiyi şəxsə elm bəxş edər*" ayəsi oldu. Əgər Allahın mənə qarşı məhəbbəti varsa, bu dəryada

boğulmağımı rəva bilməyəcək və oxucularımın qarşısında məni xar eləməyəcək. Bu kitabı sona qədər oxuyan oxucularım müəllifin dəryadakı halını və bu dəryadan nələri çıxara bildiyini əyani olaraq izləyə biləcəklər.

## Əli elmin qapısıdır

Fəxri-kainat Peyğəmbərimiz Məhəmməd əl-Mustafa (özünə və davamçılarına salam olsun) hədislərinin birində "*Mən elmin şəhəriyəmsə, Əli* (ruhuna salam olsun*) onun qapısıdır*" – deyə buyurmuşdur. Mən də öz növbəmdə bu buyruğa əməl edərək elm şəhərinə (dəryasına) QAPIDAN girməyə qərar verdim. Odur ki, rəqəmlərdəki hikmətin seyrinə dalmaq üçün Əli əleyhissalamdan bir hədisə nəzər salaq:

*Bir yəhudi alimi həzrət Əlinin elmini yoxlamaq üçün ondan soruşdu ki, dünyada elə bir ədəd varmı ki, birdən ona qədər bütün rəqəmlərə qalıqsız bölünsün? Dedi: Yeri vur onun qatlarına, axtardığını tapacaqsan. Yəhudi alimi 360-ı vurdu yeddiyə, 2520 ədədini aldı. Qumun üstündəcə hesablama apardı, gördü birdən ona qədər bütün rəqəmlərə qalıqsız bölünür. Alim Allahın elmi qarşısında heyrət etdi və Onun qüdrətinə boyun əyərək, oradaca İslamı qəbul etdi.*

## Quranın surələri və ayələri Allahın iradəsi ilə düzülüb və xüsusi bir qanunauyğunluğa tabedir

Bildiyimiz kimi, dördüncü səmavi kitab olan Qurani-kərim Məhəmməd əleyhissalama Həzrət Cəbrayıl vasitəsi ilə, vəhy yolu ilə nazil olmuş və Peyğəmbərin yanındakı katiblərin vasitəsi ilə dərilərin və daşların üzərinə həkk olunmuşdur. Peyğəmbərimizin vəfatından sonra isə Xəlifə Osmanın hakimiyyəti dövründə onun tapşırığı ilə bir qrup alim və Quranı əzbər bilənlərin iştirakı ilə bu yazılar kitab halına salınmışdir. Bunu bəhanə edərək müəyyən adamlar Quranın ayələrinin və surələrinin sayı, onların düzülüşü haqqında mübahisə açırlar. Guya kiminsə haqqında olan ayələr Qurandan çıxarılıb və yaxud Peyğəmbər özünə sərf edən sözləri bu kitaba salıb. Bu adamların fikrincə, bu müqəddəs kitabın sözləri (ayələri) Allah kəlamı olsa da bunların düzülüşü insan beyninin məhsuludur. Mənim fikrimcə isə bu cür düşünənlər yanılırlar. Yəni ayələr Allaha məxsus olduğu kimi onların nömrələnməsi, hansı surədə yerləşməsi, eləcə də surələrin düzülüşü də tamamilə Allah-taalanın nəzarəti və iradəsi ilə baş tutmuşdur və xüsusi bir qanunauyğunluğa tabedir. Bunu sübut etmək üçün ustadım Xalid Fərəcin vəhylə qəbul etdiyi və təbligi elə həmin vəhylə də bu sətirlərin müəllifinə həvalə edilən üç riyazi dəlili–düsturu diqqətinizə çatdıracagam. Bu riyazi sübutlar Quranın nömrələnməsinin Allahdan olmasına şübhə yeri qoymur.

## **Birinci dəlil:** ***Quranın 114 surədən ibarət olması təsadüfi deyil***

Araşdırmalarımız göstərir ki, Quranda olan saysız-hesabsız hikmətlərdən biri də surələrin və ayələrin nömrələnməsində olan heyrətamiz dəqiqlikdir. Yəni Quran özündən əvvəlki səmavi kitabları təsdiq etməklə yanaşı, öz-özünü də riyazi yolla təsdiq edir. Məsələn, Quranın 114 surədən ibarət olmasının hikmətinə nəzər salaq: Kainatın **dörd** cəhətdən, təbiətin **dörd** fəsildən ibarət olmasını, həmçinin insanın **dörd** ünsürdən yaranmasını və bu müqəddəs kitabın **dördüncü** səmavi kitab olmasını nəzərə alıb, Quranın ilk **dörd** surəsindəki ayələri cəmləsək, (7+286+200+ +176) 669 ədədi alınar. Qeyd edim ki, bu dörd surə bəşəri dəyərləri mülayimliklə təblig etdiyindən Quranda mülayimlik və yaxud bəşəri dəyərlər rəmzi sayılır.

Bu dəyərlərə əməl etməyənlərin necə cəzalanacağından bəhs edən surələr isə 9 rəqəmi ilə gəlir (9,19, 29, … 99, 109) və sayı 11 olan bu surələrdəki ayələri cəmləsək, 555 ədədi alınar. Bu ayələrə fikir versək, əsasən sərt ayələrdən ibarət olduğunu görərik. Elə isə bəşəri dəyərləri mülayimliklə təbliğ edən 669 ədədindən, sərtlik və cəza rəmzi olan 555 ədədini çıxsaq, (669-555=114) alınan 114 ədədi Quranın surələrinin sayını göstərir. Düsturdan məlum olur ki, bu müqəddəs kitabın mahiyyəti bəşəri dəyərlərin təbliğindən və bu dəyərlərə əməl etməyənlərin necə cəzalanacağından ibarətdir.

“**Biz hər şeyi sayıb yazmışıq**” *Quran, “Böyük xəbər” surəsi, 29*

## İkinci dəlil: *“İbrahim” surəsi niyə 14 ədədi ilə nömrələnib?*

Surələrin və ayələrin nömrələnməsində olan qanunauyğunluq riyazi yolla təsdiq olunur. Məsələn, Tovhidin əsasını qoymuş və kitab verilmiş bütün peyğəmbərlərin babası İbrahim Peyğəmbərin adına olan “İbrahim” surəsi 14 ədədi ilə nömrələnib. Buradakı hikmətin seyrinə dalaq. Belə ki, **“Rəhimli Allah”** surəsinin sıra nömrəsi olan 55 ədədi bu müqəddəs kitabda 41 dəfə keçir (cəmi qırx bir surədə 55-ci ayə var). Eyni zamanda 41 ədədi Quranda 55 dəfə keçir (kitabın cəmi əlli beş surəsində 41-ci ayə var). Bunların fərqi isə 14 ədədinə bərabərdir:

**55 - 41=14**

Düsturdan məlum olur ki, “İbrahim” surəsinin sıra nömrəsi olan 14 ədədinin hikməti məhz “ Rəhimli Allah” surəsinə bağlanır. Bu fakt həm də İbrahim əleyhissalamla, Allah-təala arasında olan əlaqənin riyazi sübutudur.

Bu düstur müqəddəs kitabın nömrələnməsində olan qanunauyğunluğu bir daha təsdiq edir. Həmçinin bu qanunauyğunluğun insan beyninin məhsulu olmadığı aydın görünür.

“***And olsun ki, Allah bunları hesablamış və təkrar-təkrar saymışdır.***” *Quran, “Məryəm” surəsi, 94.*

**Üçüncü dəlil:** ***"Məhəmməd" surəsinin 47 rəqəmi ilə nömrələnməsinin sirri nədir?***

İbrahim Peygəmbərdə olduğu kimi, fəxri-kainat Peyğəmbərimizin də adına olan surənin, **47** ədədi ilə nömrələnməsinin sirri yenə də "**Rəhimli Allah**" surəsində açılır. Belə ki, sözü gedən surə ("**Rəhimli Allah**") 78 ayədən ibarətdir. Bu ayələrin otuz birində eyni ayə təkrar olunur: "**Belə olduqda Rəbbinizin hansı nemətlərini yalan saya bilərsiniz**?!" Bunu əsas götürüb ayələrin ümumi sayı olan **78** ədədindən təkrar olunan **31** ədədini çıxsaq (**78-31=47**), alınan **47** ədədi **"Məhəmməd"** surəsinin də hikmətinin **"Rəhimli Allah"** surəsində gizləndiyini göstərir. (oxucuları yormamaq üçün bu düsturdakı digər hikmətləri açıqlamıram)

Rəbbim tərəfindən Xalid Fərəc vasitəsi ilə çatdırılan bu üç dəlil – üç riyazi düstur Quranın surələrinin və ayələrinin nömrələnməsi barədə mübahisələrə son qoyacaq qədər yetərli olsa da, hələ dəlillərin bir hissəsidir. Bu üç dəlil həm də onu sübut edir ki, Quranın 114 surədən, 6236 (altı min iki yüz otuz altı) ayədən ibarət olması heç bir şübhə doğurmur:

"**Biz hər şeyi sayıb yazmışıq" (**78:29)

## Quranın surələrinin düzülüşünü kimya elmi də təsdiq edir

Quran – bütün kainatı özündə əks etdirən səmavi kitabdır. Kainat isə kimyəvi elementlərin birləşməsindən yarandığından bu müqəddəs kitabda surələrin düzülüşü ilə elementlərin dövri sistemdəki düzülüşü arasında məntiqi bir uyğunluq vardır. Araşdırmalarımız göstərir ki, həm Quranın, həm də dövri cədvəlin düzülüşü böyük fəlsəfi əhəmiyyətə malikdir. Onların hər ikisi dialektik materializmin qanunlarını – sadədən mürəkkəbə, kəmiyyət dəyişikliyinin keyfiyyət dəyişikliyinə keçməsi, əksliklərin vəhdəti və mübarizəsi qanunlarını əks etdirir. Belə ki, Quranın əvvəlki surələri nə qədər mülayimdirsə, sıra nömrələri artdıqca surələr sərtləşməyə dogru gedir. Bu da sadədən mürəkkəbə və kəmiyyət dəyişikliyinin keyfiyyət dəyişikliyinə keçməsi qanunlarına uyğundur. Dövri sistemdə bu hal dövrlərdə nömrələr artdıqca, metallıq xassəsinin azalıb, qeyri-metallıq xassəsinin artması ilə özünü göstərir. Bundan başqa, surələr ikili xassə göstərir. Yəni onlar həm müsbət, həm də mənfi yüklə (vəhylə) yüklənmişdir ki, bu da dialektikanın əksliklərin vəhdəti və mübarizəsi qanununa uyğundur. Mendeleyev cədvəlində bu hal eyni elementin ikili (həm müsbət, həm də mənfi) xassəyə malik olması ilə özünü göstərir. *(Yeri gəlmişkən, ikili xassəyə malik olma Allahın yaratdığı digər bioloji varlıqlar kimi, insanda da özünü aydın göstərir. Yəni, qarşılaşdığı adamdan asılı olaraq hər bir insan, kimyəvi elementlər kimi gah mənfi, gah da müsbət xassə*

*nümayiş etdirir).* Bundan başqa, bir çox hallarda eyni rəqəmlə nömrələnmiş surə ilə kimyəvi element bir-birini həm mahiyyətcə, həm də riyazi yolla tamamlayır. Məsələn, Quranın 16-cı surəsi «Bal arısı» adlanır. Qeyd edim ki, ana arı öz balasını 16 gün bəslədiyindən, onun haqqında olan surə də 16 rəqəmi ilə nömrələnib. Sözü gedən surədə arının misalında insanlara məhəbbət aşılanır: Bal–arının gülə olan məhəbbətinin nəticəsində yarandığı üçün həm Qərbdə, həm də Şərqdə məhəbbət rəmzi sayılır. Məhəbbət yandırıcı hiss olduğundan, bu söz **«yanmaq», «alovlanmaq»** sözü ilə yanaşı işlədilir. Mendeleyev cədvəlinin isə 16-cı elementi kükürddür ki, məişətimizə **yandırıcı** bir vasitə kimi daxil olub. Həmçinin məhəbbət insana yaşamaq həvəsi, enerji (ruh) verdiyi kimi, kükürdün oksidləşməsindən yaranan sulfat turşusu da ($H_2SO_4$) akkumulyator istehsalında istifadə edilir və məişətimizə **enerji mənbəyi** kimi daxil olub.

Məhəbbətdə iki tərəf iştirak edir və biri olmadan o biri yanmaz. Bu hal kimya elmində də özünü büruzə verir. Belə ki, 16-cı element olan kükürd, atom kütləsi 16 olan oksigensiz yanmır. Ən maraqlısı da odur ki, kükürdlə oksigenin birləşməsində kükürdün energetik səviyyələr üzrə elektronları 2 8 6 formasında yerləşir. Bunu da bütöv oxuduqda Quranın səhifələrinin sayına işarədir. (Quran nazil olandan, keçən əsrə qədər harada və nə vaxt çap olmasından asılı olmayaraq 286 səhifədə yerləşdirilib. Bu barədə növbəti fəsildə danışacağıq). Qeyd edim ki, 286 ədədinin əbcəd hesabı ilə cəmi (2+8+6) 16-ya bərabərdir ki, bu da Quranın insanlara məhəbbət aşıladığını bir daha

sübut edir: **«Siz bir-birinizi sevin ki, mən də sizi sevim.»** *(Allah-təala. Qüdsi hədislərindən.)*

Atom kütləsi 16 olan və yanmanı təmin edən oksigenin sıra nömrəsini (8), kükürdün məhəbbət rəmzi olan sıra nömrəsinə - 16-ya vurduqda (8 x 16), alınan 128 ədədi «Bal arısı» surəsinin ayələrinin cəmini göstərir və elementlərlə surələr arasında olan əlaqəni bir daha təsdiq edir.



*Arı öz balı ilə Allahın adını yazmışdır*

«Rumlular» surəsinin 21-ci ayəsində Rəbbim buyurur:

***«Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda** (dostluq) **sevgi, məhəbbət və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir. Həqiqətən, bunda** (bu yaradılışda) **dü-***

***şünən bir qövm üçün ibrətlər vardır!»*** (30: 21) Bu, Quranın (başdan saydıqda) 3430-cu ayəsidir ki, Qurandakı ayələrin ümumi sayından (6236) sözü gedən ayənin nömrəsini (3430) çıxdıqda, yenə də alınan ədəd bu müqəddəs kitabın rəmzini (286) göstərir:

**6236 – 3430 = 28(0)6**

Yeri gəlmişkən onu da qeyd edim ki, Allaha yaxınlaşmaq və Onun məhəbbətini qazanmağın birinci yolu elmdir. Və bu istiqamətdə çalışan insan (tələbə) bal arısına bənzəyir. Belə ki, arı zəhmət çəkib güldən-çiçəkdən şirə toplayır və nəticədə **bal** yaradır. Elm öyrənən insan da hər kitabdan bir qədər elm (oxu: şirə) toplayır və imtahan verərkən nəticəsi «**bal**»la qiymətləndirilir. İnsanın topladığı bal (qiymət) onun elminə (zəhmətinə) olan məhəbbətin göstəricisidir. Qeyd edm ki, Allah-taala elmi (və imanı) çox olan insanı digərlərindən daha çox sevir. Bunu Loğman Peyğəmbərin simasında aydın görmək olur. Belə ki, Allah kitab verdiyi, şəriət sahibi olan peyğəmbərlərin çoxunun adına Quranda surə göndərməsə də, kitab və şəriət sahibi olmayan, lakin elm verilən Loğman Peyğəmbərin adına 31-ci surəni göndərdi. Bu, Allahın elm adamlarına olan məhəbbətinin təzahürüdür.

Diqqətinizi bal arısında olan digər xüsusiyyətin insanlarda özünü göstərməsinə cəlb etmək istəyirəm. Yuxarıda qeyd etdim ki, bal arısı gözəllik rəmzi olan gülə məhəbbət bəsləyir və ancaq onlarla təmasda olur. Xatırladım ki, təbiətin gözəlliyi gül-çiçək olduğu kimi, cəmiyyətin də gözəlliyi qadı-

nlardır. Arının gülə olan məhəbbətinin nəticəsində **bal** yarandığı kimi, insanın da (kişinin) qadına olan məhəbbətinin nəticəsində **bal**(a) yaranır və hər ikisi şirindir. Çünki ikisi də məhəbbətdən yaranır. **«Bala baldan şirindir»** məsəli də məhz bu hikmətdən doğur.

Allah bal arısını həm də dövlət və ordu qurmaq üçün insanlara nümunə yaradıb.

## Quranın düzülüşünün doğruluğunu fizika elmi də təsdiq edir

Quranın 13-cü surəsi «Göy Gurultusu» adlanır. Göy gurultusunun enerji prosesi olduğu və həyəcan yaratdığı hamıya məlumdur. Surədə deyilir: **«Göy gurultusu Onun şəninə təriflər deyir. O ildırımlar göndərib** (kafirlər) **Allah barəsində mübahisə edərkən, onlara istədiyini vurar. Allahın cəzası şiddətlidir!»** (13:13) Mendeleyev cədvəlinin 13-cü elementi isə Alminiumdur. Elektrik ötürmə qabiliyyəti yüksək olduğundan, alüminium energetika (!) sənayesinin özəyini təşkil edir.

Yeri gəlmişkən qeyd edim ki, ildırımın 13 şaxəsi var və o, hər dəfə çaxanda 13 ölkədə (günahkarlara xəbərdarlıq etmək üçün) görünür.

13 rəqəmi həm Quranda, həm də fizikada həyəcan rəmzi sayılır. (Göy gurultusu insanda da həyəcan yaradır.) Təsadüfi deyildir ki, hidrogen atomunun enerji qəbul etməmiş (həyəcanlanmamış) yükü 13 EV-dur. Hidrogen atomu enerji qəbul etdikdə həyəcanlanır və yükünü ötürməklə boşalır.

İnsanlar arasında bəd xəbərin tez yayılması da həyəcanlanma ilə bağlıdır. Belə ki, bəd xəbərin enerji yükü mənfi olduğundan, onu qəbul edən insan həyəcanlanır və yükünü ötürməyə çalışır. Bu halı atomun və təbiətin həyəcanlanması (göy gurultusu) ilə müqayisə etdikdə, çox böyük oxşarlıq görünür. Həmçinin təbiət öz həyəcanını (yükünü) yağışla boşaltdığı kimi, insan da göz yaşı ilə boşaldır.

Bəzi binalar və yaxud obyektlər tikilərkən yannıda ildırımötürücülər quraşdırılır. İnsan cəmiyyətində bu funksiyanı kəramət sahibləri və yaxud onların müqəddəs ziyarətgahları yerinə yetirir. Belə ki, təcrübədən məlumdur ki, bir çox məhəlli bəlaların qarşısını Allahın izni ilə ziyarətgahlar alırlar. Bu mənada onlar cəmiyyətin ildırımötürəni funksiyasını yerinə yetirirlər.

## İnsan necə nurlanır

Allah-taala dünyaya gələn hər bir insana öz enerjisindən (nurundan) bir zərrə bəxş edir. İnsan həyatda gözəl işlər, gözəl əməllərlə məşğul olduqda, onun mənəviyyatı tədricən **cilalanır** və nurun parlaqlığı artmağa – böyüməyə və ətrafa işıq saçmağa başlayır. Onun üçün də belə şəxslər Ali Enerji Mənbəyi olan Allaha daha yaxın olurlar. Həmçinin belə insanlar böyük ideyalar, böyük amallar, bəşəri dəyərlər uğrunda mübarizəyə meyilli olur və kamil sayılırlar. Quranın nurdan bəhs edən «Nur» surəsi **24** rəqəmi ilə nömrələnib. Mendeleyev cədvəlində isə **24**-cü element Xromdur. Bu element oksidləşdikdə

(Xrom 3 oksid) **cilalayıcı** qrupa aid edilir və İslamın rəmzi olan yaşıl rəngə çalır. Dövri cədvəldə **24** rəqəmi ilə bağlı olan elementlərdən biri də maqneziumdur. Atom kütləsi **24** olan bu element gözqamaşdırıcı alovla yandığından, ondan **işıqlandırıcı** və **yandırıcı** raketlərin hazırlanmasında, eləcə də fotoqrafiya işində **işıq mənbəyi** kimi istifadə edilir. Qeyd edim ki, haqqında söhbət açdığım «Nur» surəsi, xrom və maqnezium hər üçü işıqlanmaya (nurlanmaya) xidmət etdikləri kimi, riyazi yolla da biri-biri ilə bağlıdır. Belə ki, «Nur» surəsinin ayələrinin cəmindən (64) xromun atom kütləsini (52) çıxdıqda, (64-52=12) alınan 12 rəqəmi, maqneziumun sıra nömrəsidir.

Quranın «Nur» sürəsində qadınların geyim mədəniyyətindən, əxlaqından bəhs olunur. Sual yaranır ki, bu mövzuda niyə məhz 24 rəqəmi altında danışılır?

Cavabı budur ki, insan öz rəbbi ilə əlaqəni məhz nur vasitəsilə yaradır. Qadınlar ədəbsiz geyinib cəmiyyət içinə çıxanda (indiki kimi) insanların üzündəki abır-həya (nur) yoxa çıxır və allahdan uzaqlaşır (duaları qəbul olunmur). Beləliklə, qadınların geyim mədəniyyəti ilə cəmiyyətin nurlanması bir-birinə bağlı olduğundan, rəbbim geyim barədə məhz «Nur» (24) sürəsində bəhs edir: «**Mömin kişilərə və qadınlara de ki, gözlərini haram buyrulmuş şeylərdən çevirsinlər** (naməhrəmə baxmasınlar)**, ayıb yerlərini** (zinadan) **qorusunlar** (və ya örtülü saxlasınlar)**. Bu onlar üçün** (ədəb-ərkan baxımından) **daha yaxşıdır. Şübhəsiz ki, Allah onların nə etdiklərindən xəbərdardır!**» (Nur sürəsi, 30-31).

İndi isə Quranın **«Dəmir»** surəsi ilə dövri sistemin eyni adlı **dəmir** elementi arasındakı əlaqəyə diqqət yetirək. Bunun üçün dəmir elementinin atom kütləsi olan 55 ədədindən, sıra nömrəsini (26) çıxdıqda (55-26=29), alınan 29 ədədi «**Dəmir**» surəsinin ayələrinin cəmini göstərir.

Bu və digər hesablamalar onu sübut edir ki Quranın 114 surədən və 6236 ayədən ibarət olması heç də təsadüfi olmayıb, Allahın elminə və iradəsinə tabedir. Bu faktlar, həmçinin başqa elmlər kimi, kimya elminin də Allaha məxsus olduğunu və mənbəyinin Quranda olduğunu bir daha sübut edir.

***"And olsun ki Allah bunları hesablamış və təkrar-təkrar saymışdır."*** *Quran, "Məryəm" surəsi 94*

Yeri gəlmişkən qeyd edim ki, Mendeleyevdən qabaq yaşamış bir çox kimya alimləri elementlərin dövri cədvəlini yaratmağa çalışsalar da ömürlərinin sonuna qədər buna nail ola bilməmişlər. Bu cədvəli necə kəşf etməsi barədə suala cavab verərkən, Mendeleyev bildirmişdir ki, cədvəl ona Bakıda olarkən, yuxuda vəhy yolu ilə göstərilmişdir. Səhər tezdən oyanan alim, ona yuxuda vəhy olunan cədvəli kağıza köçürmüşdür. Lakin cədvəldəki bəzi suallara nə özü, nə də ondan sonra gələn alimlər cavab tapa bilməmişlər. Yeri gəlmişkən qeyd edim ki, yuxarıda oxuduğunuz kimyəvi hesablamalar da bu sətirlərin müəllifinə həmin yolla (Mendeleyevə öyrədilən kimi) öyrədildi və kimyaçılar indiyədək cədvəldə axtardıqları sualların cavabını məhz bu hesablama-

larda tapa bilərlər.



## *Surələrin və ayələrin nömrələnməsində olan qanunauyğunluğu anatomiya elmi də təsdiq edir*

Həmçinin **55** rəqəmi ilə nömrələnmiş «**Rəhmli Allah**» surəsi ilə Mendeleyev cədvəlinin **55**-ci xanasında yerləşən Sezium elementi arasındakı riyazi bağlılığa diqqət yetirək: Seziumun nisbi atom kütləsindən (133), sıra nömrəsini (55) çıxdıqda, alınan rəqəm «Rəhmli Allah» surəsinin ayələrinin cəmi olan 78 ədədini göstərir: **133-55=78**

Bu və digər hesablamalar göstərir ki, surələrin və ayələrin nömrələnməsi təsadüf olmayıb, böyük hikmətə malikdir. Bu hikmətlərdən daha birinə vaqif olmaq üçün Quranın **36**-cı –«**Ya Sin**» surəsini təhlil edək: surənin adı bir çox alimlər tərəfindən **«İnsan»** kimi tərcümə olunur. Həmçinin Quranda Ilyas Peyğəmbərdən söhbət gedərkən bir yerdə «Ilyasin» deyə müraciət olunur (37:130). Buradan görünür ki, **«Ya Sin»** deyəndə, söhbət kamil insandan gedir. «**Ya Sin**» sözünü «Yaradan-Silən» kimi də tərcümə etsək yanılmarıq (düzgünün Allah bilir). Bildiyimiz kimi, kainatın idarəolunma qanunları fizikanın qanunları ilə üst-üstə düşür. Kainatda enerjinin mənbəyi (Allah) ilə mənsəbi (insan) arasında ötürücülük vəzifəsini kamil insanlar–peyğəmbərlər həyata keçirirlər. Fizikada isə bu funksiyanı transformatorlar yerinə yetirir. Bildiyimiz kimi, kamil insanın qəbul etdiyi vəhy (enerji) bir neçə formada–gizli səs, siqnal, ilham və s. daxil olur. O bu informasiyanı cəmiyyətə ötürərkən, daxil olan formada və həcmdə deyil, sözə

və yaxud yazıya ÇEVIRMƏKLƏ və insanların şüuru səviyyəsində (həzm edə biləcəyi qədər) ötürür. Fizikada transformatorun da iş prinsipi bu cürdür. «Transformator» sözü transformasiya sözündən yaranıb ki, tərcüməsi "**çevirmə**" deməkdir. Funksiyası isə mənbədən qəbul etdiyi yüksəkgərginlikli enerjini alçaqgərginlikli enerjiyə çevirib, mənsəbə ötürməkdən ibarətdir. Kamil insanla transformatorun funksiyasında olan bu eynilik rəqəmlərdə də özünü göstərir. Belə ki, insanın anatomik quruluşuna nəzər saldıqda, 5 duyğu üzvü, 5 oma və 5 bel fəqərəsi, başbeyində 5 şöbə olduğu görünür. Həmçinin insan gündə 5 dəfə ibadət edir. Bu 5 amilin hamısını özündə əks etdirən kamil insanın Qurandakı rəmzi **36** rəqəmidir. Transformatorda isə bir qayda olaraq 5 vəziyyət olmaqla hər vəziyyətdə **36** sarğı olur.

Ümumiyyətlə, transformatorlar iki cür olur: yüksəldici və alçaldıcı. İkinci qrup haqqında yuxarıda bəhs etdik ki, qəbul etdikləri gərginliyi azaldıb, mənsəbin tutumuna uyğun (220) ötürürlər. Bu cür transformatorlar yaşayış məntəqələrinin içərisində yerləşir. Yüksəldici transformatorlar isə quruluşuna və funksiyasına görə ikincilərdən fərqlənir. Belə ki, onların ötürdükləri gərginlik, qəbul etdiklərindən qat-qat artıq olur. Onlara nəinki cihaz birləşdirmək, hətta yaxınlaşmaq belə mümkün deyildir (gərginlik insanı məsafədən məhv edir). Onun üçün də belə transformatorlar yaşayış yerlərindən kənarda yerləşdirilir və onlarla əlaqə məhəlli (alçaldıcı) transformatorların vasitəsi ilə qurulur. Bunun misalı ilahiyyat sistemin-

dəki vəhy (enerji) gətirən mələklərdir ki, adi insan nəinki onlarla əlaqə yarada bilməz, hətta kənardan görsə belə, mələyin enerji və informasiya yükünə tab gətirməyib, məhv olar. (Peyğəmbərdən bəhs edən hədislərdə, onun mələyi görərkən və ya səsini eşidərkən titrədiyi (vibrasiya) təsvir olunur). Odur ki, bu cür hallara dözmək üçün vəhy qəbul etməzdən əvvəl kamil insanın qəlbi açılıb genişləndirilir. Yəni, enerji və informasiya götürmə qabiliyyəti (tutumu) artırılır. Bu barədə Quranın **«Genişlənmə»** (94) surəsində deyilir: – **«Məgər biz sənin köksünü** (qəlbini) **açıb genişləndirmədikmi?!»** (94:1).

Sözü gedən mövzu kimya elmində də öz əksini tapır. Belə ki, Mendeleyev cədvəlinin **36-**cı (!) elementi kriptondur. Təsirsiz qaz olan bu kimyəvi element **işıqlanmanı** (!) gücləndirdiyindən, ondan bəzi elektrik lampalarında istifadə edilir. Belə lampalar kiçik ölçüdə olmaqla, ətrafa güclü işıq saçır və davamlığı yüksək olur. Kripton lampalarından **radiomayaklarda** (!) və **radiolakatorlarda** istifadə edilir ki, bu obyeklərin də funksiyası ilə kamil insanın funksiyası (informasiya qəbuletmə və yolgöstərmə) arasında çox böyük oxşarlıq vardır.

***"And olsun ki Allah bunları hesablamış və təkrar-təkrar saymışdır."*** *Quran, "Məryəm" surəsi, 94*

Enerji (ruh) daşıyıcısı olan insanın anatomik quruluşu 220 sümüyün birləşməsindən yaranıb. Fizika elmində də 220 ədədi enerji rəmzi kimi qəbul edilir. Yəni, anatomik quruluşumuzda olduğu

kimi, məişətimizdə də işlətdiyimiz bütün cihazların üzərində 220 ədədi həkk olunub.

## Ballistika elmi də Quranın ayələrinin düzülüşünün Allah tərəfindən olduğunu sübut edir

İnsanın anatomik quruluşunda olan çoxsaylı hikmətlərdən biri də barmaq izləridir. Belə ki, bu günədək dünyaya saysız-hesabsız insanlar gəlib getsə də, onların heç birinin barmaq izləri biri-birinə bənzəmir. Quranda barmaqların uclarından bəhs edərək bildirilir ki, Qiyamət günü insanlar dirilərkən, həmin izlər olduğu kimi bərpa olacaqdır: **«Bəli, Biz onun barmaqlarını da** (barmaq izlərini) **düzəltməyə qadirik!»** (*Quran 75: 4*) Burada diqqət çəkən məqam ondan ibarətdir ki, bu ayə Quranın (başdan saydıqda) **5555-**ci ayəsidir. Maraqlıdır ki, insanda iki əl, iki ayaq olmaqla hər birində 5 barmaq var və onların dördünü yanaşı qoyduqda **5555** rəqəmi alınır.

Bu və digər hesablamalar bir daha sübut edir ki münafiqlərin fikirləşdiyinin əksinə olaraq Peyğəmbərimiz Qurana özünə sərf edən heç bir kəlmə əlavə etməmiş və müqəddəs kitabın nazil olması kimi, sonradan düzülməsi də birbaşa Allahın nəzarətində olmuşdur:

“**Biz hər şeyi sayıb yazmışıq”(**78:29)

## İnsan məscidə bənzəyir

İnsanın anatomik quruluşunda olan İslamın digər əlamətinə nəzər salaq: belə ki, Haqq dərgahına əl qaldıran mömin insana fikir versək, iki qolları qoşa minarəyə, başı gümbəzə, sinəsi (qəlbi) otağa bənzəməklə məscidi xatırladır. **«Bir insanın qəlbini sındırmaq, bir məscidi uçurtmağa bərabərdir.»** atalar sözü də bu hikmətdən qaynaqlanır.

Allah-taala buyurur:–**«İnsan Mənim sirrimdir, Mən də insanın sirriyəm». (***Qüdsi hədislərindən)*

Həm insanda, həm də fizikada enerjinin yaranması prosesi üst-üstə düşür. Belə ki, müqəddəs Həcc Ziyarətində olanlar və yaxud bu prosesi bəsirətlə müşahidə edənlər belə bir halın şahidi olurlar ki, zəvvar Kəbə evinin ətrafına fırlandıqca vəcdə gəlir və sanki bu **fırlanmadan** onun ruhu, mənəviyyatı cilalanır və parlaqlığı (işığı) artır. Qəlbində Allaha qarşı sevgi, məhəbbət artır. Özündən asılı olmayaraq insanda bir enerji yaranır. Fizika elmində də enerjinin yaranmasına bəsirətlə fikir versək, Kəbə ətrafında baş verən prosesi burada da aydın görmək olar. Belə ki, elektrik stansiyalarında enerji **fırlanmadan** (!) yaranır.

## Quran insanın " texniki pasportu"dur

Böyük Yaradan insanı yaratdıqdan sonra onun fəaliyyətini nizamlamaq, insanlarla münasibətlərini, davranışlarını, əxlaqını, mənəviyya-

tını kamilləşdirmək üçün səmavi kitabları – o cümlədən, ən Ali kitab olan və özündən əvvəlki kitabları özündə əks etdirən QURANI göndərdi. Və orada yazılanlara əməl etmək insanlara vacib sayıldı. Necə ki, hər bir ixtiraçı alim yaratdığı cihazın (və yaxud texnikanın) necə idarə olunması üçün onun texniki pasportunu yazıb, ona riayət etməyi tapşırır. Bu tapşırığa riayət etməyəndə cihazın fəaliyyətində problem yarandığı kimi, Quranda da yazılanlara əməl etməyəndə, insanın həyatında (cəmiyyətində) problemlər yaranır. Maraqlıdır ki, insanlar məişətdə istifadə etdikləri cihazın texniki pasportunda yazılanlara ciddi əməl etdikləri halda öz fəaliyyətlərində problem yaranmaması üçün Quranda yazılanlardan – Ilahi məsləhətlərdən faydalanmırlar.

## Cəmiyyət niyə çürüyür?

Allahın yaratdığı hər bir nemətin özünəməxsus hikmətləri vardır. Biz o nemətlərdən istifadə edərkən, çox vaxt bu hikmətin fərqinə varmırıq. Məsələn nara diqqətlə fikir versək, görərik ki, o cəmiyyətə işarədir. Allah-təala narın hər bir dənəsinin qidasını kapiliyyarlar vasitəsi ilə özünə göndərdiyi kimi, cəmiyyətin hər bir fərdinin də ruzisini özünə göndərir. Amma təəssüf ki, narın dənələrindən fərqli olaraq, insanlar özlərinə göndərilən ruziyə qane olmayaraq, bir çox hallarda başqalarının da ruzisinə şərik olmağa, başqalarını əzməyə çalışırlar.

Narın təbəqələri arasında olan pərdə isə, onu çürüməkdən qoruyur. Nə vaxt ki, insan cəmiyyətində təbəqələr arasında pərdələr götürülür, həmin vaxt mənəvi aşınma və cəmiyyətin çürüməsi baş verir.

Həm şərq, həm də qərb yozucularına görə nar ruzi-bərəkət rəmzi sayılır. İnsanlar böyük-kiçik arasında pərdə saxlamalıdırlar ki, cəmiyyətdən ruzi-bərəkət çəkilməsin.

## Qurandakı hikmətləri kibernetika elmi də təsdiq edir

Kamil insan olan Həzrət Məhəmməd əleyhissəlamın həyatı ilə tanış olanlar belə bir epizodu xatırlayırlar ki, ilk vəhyi gətirən Həzrəti Cəbrail üç dəfə «Oxu» dedi və hər dəfə eyni cavabı aldı: «Oxuya bilmirəm». Sonra isə Mələk Peyğəmbəri sıxdı və Peyğəmbər başladı oxumağa. Maraqlı deyilmi? Anatomik və bioloji cəhətdən bizdən heç nə ilə fərqlənməyən əcdadımızı sıxdıqdan sonra indiyədək tanımadığı bir əlifbanı oxuyur. Bəs bu hal indi niyə mümkün olmasın? Bəlkə mümkündür, biz bilmirik?

Bu gün insanların əksəriyyəti xarici informasiya məkanına (mənbəyinə) çıxmaq üçün İnternet xidmətindən istifadə edir. Sual yaranır: insanın surəti olaraq yaradılan kompyuterdə xarici informasiya aləminə (internetə) çıxış varsa, bəs əslində (insanda) niyə olmasın? Və bir sual da yaranır: Əslində olmayan bir

şey surətə düşə bilərmi? Xeyr! Elə isə kompyuterdə sıxdığımız «w» nöqtəsini insanda axtarmaq lazım deyilmi?

İnsanda təbabətə məlum olan minlərlə nöqtə vardır ki, onlardan «mesaj göndərməklə» istənilən daxili orqanın tonusunu (enerjisini) artırmaq və onun pozulmuş fəaliyyətini tənzimləmək mümkündür.

Bəs ruhumuza necə? Ona hansı nöqtədən «mesaj göndərmək», komanda vermək, Ali Enerji və Informasiya Mənbəyinə «qoşmaq» mümkündür? Əgər Allahın bəxş etdiyi elmlə bu nöqtələri üzərimizdə tapsaq və sayı üç olan bu nöqtələri hər əlimizin üç barmağı ilə basarkən (sıxarkən) barmaqlarımız fəzada **«www»** formasını alsa və verilən «komanda» nəticəsində ruhumuz paralel aləmə – informasiya və enerji məkanına «çıxıb», öz Mənbəyi ilə təmas yaratsa, yuxarıdakı çətin sualların cavabı tapılmazmı?

Bildiyimiz kimi insan həyəcanlı (qorxulu) informasiya qəbul etdikdə, bu həyəcana ilk reaksiyanı mədə və bağırsaq verir. Yəni mədədə spazma (sıxılma) yaranır və bağırsağa sancı ötürür. Bu hal insanın alt kopiyası olan kompyuterdə də özünü aydın göstərir. Belə ki, insan anatomiyasına diqqətlə fikir versək, xəbəri ilk qəbul edən orqanın – mədə və bağırsağın quruluşunun «@» formasında olduğunu aydın görmək olar. Maraqlıdır ki, kompüter də internetdən (informasiya mənbəyindən) qəbul etdiyi informasiyanı **«@»** işarəsi altında qəbul edir və ötürür.

Araşdırmalarımız göstərir ki, insandakı üç nöqtəni hər əlin üç barmağı ilə birləşdirməklə (www), istənilən vaxt bəsirət gözünü açıb, paralel aləmdə olan nuru ziyarət etmək mümkündür. O ki, qaldı mədənin üstündə olan «@» nöqtəsini sıxıb, ətrafa «komanda» verməyə, bundan yalnız Allahın icazəsi ilə və yalnız bir dəfə 1999-cu ilin dekabrında istifadə edilib (həqqi yəqinlik hasil olması üçün). Komandanın ünvanı isə Yerin cazibəsindən kənarda olan sputnik ötürücü stansiyası olub. Verilən komanda nəticəsində sputnikin fəaliyyəti bir dəqiqəlik dayandığından, Yerdə bütün rabitə, informasiya və translyasiyalar bir dəqiqəlik dayandı. Bu qeyri-adi hadisə barədə yayılan informasiyalar çox müəmmalı oldu.

Və nəhayət, aqillərin «kəşf», cahillərin isə «fantaziya» adlandıracağı bu yazını, ikincilərin üstünlük təşkil etdikləri bir dövrdə davam etdirməyə dəyərmi? Elə isə burada mən nöqtəni qoyuram (daha doğrusu sıxıram).

# TƏYYARƏ QƏZALARININ GÖRÜNMƏYƏN TƏRƏFLƏRİ

## Günəş tutulmaları bir qayda olaraq ayın 29-da baş verir

***"Məgər göylərdə və yerdə olanların – Günəşin, Ayın və ulduzların, dağların, ağacların və heyvanların*** *(hamısının),* ***insanların isə bir çoxunun Allaha səcdə etdiyini görmürsənmi ?..."*** *Quran "Həcc"surəsi 18*

Elm və peyğəmbərlik əsri olan XXI əsrdə baş verən Günəş tutulmalarının monitorinqini apararkən maraqlı faktların şahidi oldum. Bu faktlar Günəş təqvimi ilə Ay (hicri-qəməri) təqvimini uzlaşdırdıqda üzə çıxdı. Yəni bu əsrdə baş verən (verəcək) astronomik hadisələrin tarixlərini internet saytlarından götürüb hicri-qəməri (Ay) təqvimi ilə müqayisə etdikdə, məlum oldu ki, Günəş tutulmaları bir qayda olaraq ayın 29-da baş verir. Bu ədədin mənasını şərh etməzdən öncə tərtib etdiyim cədvəli diqqətinizə çatdırıram.

| SN | Günəş tutulmasının baş verdiyi tarixlər | |
|---|---|---|
| | **Günəş təqvimi ilə** | **Ay təqvimi ilə** |
| 1 | 21 iyul 2001 | 29 rəbiül axır |
| 2 | 14 dekabr 2001 | 29 ramazan |
| 3 | 10 iyun 2002 | 29 rəbiül əvvəl |
| 4 | 4 dekabr 2002 | 29 ramazan |
| 5 | 3 aprel 2003 | 29 məhərrəm |

| | | |
|---|---|---|
| 6 | 31 may 2003 | 29 rəbiül əvvəl |
| 7 | 24 noyabr 2003 | 29 ramazan |
| 8 | 19 aprel 2004 | 28 səfər |
| *9* | *14 oktyabr 2004* | *29 şaban* |
| *10* | *8 aprel 2005* | *28 səfər* |
| *11* | *3 oktyabr 2005* | *29 şaban* |
| *12* | *29 mart 2006* | *28 səfər* |
| *13* | *22 sentyabr 2006* | *29 şaban* |
| *14* | *19 mart 2007* | *28 səfər* |
| *15* | *11 sentyabr 2007* | *29 şaban* |
| 16 | 7 fevral 2008 | 29 məhərrəm |
| **17** | **1 avqust 2008** | **29 rəcəb** |
| **18** | **26 yanvar 2009** | **29 məhərrəm** |
| **19** | **22 iyul 2009** | **29 rəcəb** |
| **20** | **15 yanvar 2010** | **29 məhərrəm** |
| **21** | **11 iyul 2010** | **29 rəcəb** |
| **22** | **4 yanvar 2011** | **29 məhərrəm** |
| **23** | **2 iyun 2011** | **29 cəmadiül axır** |
| **24** | **1 iyul 2011** | **29 rəcəb** |
| *25* | *25 noyabr 2011* | *29 zilhiccə* |
| *26* | *21 may 2012* | *29 cəm axır* |
| *27* | *14 noyabr 2012* | *29 zilhiccə* |
| *28* | *10 may 2013* | *29 cəm axır* |
| *29* | *3 noyabr 2013* | *29 zilhiccə* |
| *30* | *29 aprel 2014* | *29 cəm axır* |
| *31* | *24 oktyabr 2014* | *29 zilhiccə* |
| **32** | **20 mart 2015** | **29 cəmadiül əvvəl** |
| **33** | **13 sentyabr 2015** | **29 zilqədə** |
| **34** | **9 mart 2016** | **29 cəm əvvəl** |

| | | |
|---|---|---|
| **35** | **1 sentyabr 2016** | **29 zilqədə** |
| **36** | **26 fevral 2017** | **29 cəm əvvəl** |
| **37** | **21 avqust 2017** | **29 zilqədə** |
| **38** | **15 fevral 2018** | **29 cəm əvvəl** |
| **39** | **13 iyul 2018** | **29 şəvval** |
| **40** | **11 avqust 2018** | **29 zilqədə** |
| *41* | *7 yanvar 2019* | *29 rəbiül axır* |
| *42* | *2 iyul 2019* | *29 şəvval* |
| *43* | *25 dekabr 2019* | *29 rəbiül axır* |
| *44* | *21 iyun 2020* | *29 şəvval* |
| *45* | *14 dekabr 2020* | *29 rəbiül axır* |
| *46* | *10 iyun 2021* | *29 şəvval* |
| *47* | *4 dekabr 2021* | *29 rəbiül axır* |
| *48* | *1 may 2022* | *29 ramazan* |
| *49* | *25 oktyabr 2022* | *29 rəbiül əvvəl* |
| **50** | **20 aprel 2023** | **29 ramazan** |
| **51** | **14 oktyabr 2023** | **29 rəbiül əvvəl** |
| **52** | **9 aprel 2024** | **29 ramazan** |
| **53** | **3 oktyabr 2024** | **29 rəbiül əvvəl** |
| | | və sair |

Cədvəldən görünür ki, Günəş tutulmaları bir qayda olaraq ayın 29-da baş verir. Bunun mənasını anlamaq üçün 29 ədədinin hikmətinə nəzər salaq. Əvvəlcə qeyd edim ki, 29 ədədi Yer əhlinə – yəni insanlara işarədir. Çünki yerin insan yaşayan quru hissəsi 29%-dir.

Quranın 29-cu surəsi "Hörümçək" adlanır və şər qüvvələrə, bugünkü mafiya və monopoliyalara işa-

rədir. Bildiyimiz kimi bu gün Yer kürəsinin 29 %-də yaşayan insanlar şər qüvvələrin qurduqları hörümçək torunda çabalamaqdadırlar. Qurani-kərimdə Günəş tutulması qiyamətin əlaməti olaraq qeyd edilir. XXI əsrdə bu əlamətin (tutulmanın) 29 ədədi altında baş verməsi, artıq Yer əhlinə xəbərdarlıq kimi qəbul edilməlidir. Sübut üçün bildirim ki, 29-cu surə 69 ayədən ibarətdir. 69 ədədi isə **"Haqq olan qiyamət"** surəsinin sıra nömrəsi olduğundan, Quranda qiyamət rəmzi sayılır. Yəqinlik olması üçün daha bir dəlil gətirim ki, 29-cu ayə Quranda 69 dəfə keçir. (Yəni Quranın cəmi altmış doqquz surəsində 29-cu ayə var. Qalan surələrdə ayələrin sayı 29-dan azdır). Bütün bunlar onu göstərir ki, qiyamətin əlaməti olan Günəş tutulması riyazi yolla "Haqq olan qiyamət" (69) surəsi ilə əlaqələnir. Bütün bunlar insanlara xəbərdarlıq olması ilə yanaşı, həm də bu müqəddəs kitabın düzülüşünün (nömrələnməsinin) Allahın iradəsi altında baş verdiyini təsdiqləyir.

***"And olsun ki, Allah bunları hesablamış və təkrar-təkrar saymışdır."*** *Quran, "Məryəm" surəsi 94*

2004-cü ildən başlayaraq dörd il dalbadal səfər ayının 28 də günəş tutulması Quranı vəhylə qəbul edən fəxri-kainat Peyğəmbərimiz Məhəmməd Əleyhissəlamın həmin gün baş verən vəfatına işarədir.

Cədvəldə diqqət cəkən digər məqam ondan ibarətdir ki, hər bir Günəş tutulması **355** günün tamamında yenidən baş verir. Bu da Ay təqvimi ilə tam bir il deməkdir.

Maraqlıdır ki, bu hal dörd il dalbadal davam edir. Məsələn, 2004-2005-2006-2007-ci illərin Şaban ayının 29-da Günəş tutulub. Bütün bunlar bir daha onu göstərir ki, astronomik hadisələr təsadüfü deyil, xüsusi bir qanunauyğunluqla baş verir. Burada sual yaranır ki, niyə məhs dörd dəfə təkrarlanır? Cavab olaraq qeyd edim ki, kainatın dörd cəhəti, təbiətin dörd fəsli var, həmçinin insan dörd ünsürdən (torpaq, su, hava, ruh) yaranıb. Eləcə də elm və ədəb mənbəyi olan Quran dördüncü səmavi kitabdır. Deməli Rəbbim Günəş tutulması ilə insanların (ağıl sahib-lərinin) diqqətini bütün yaradılışın əks olunduğu Qurana yönəldir.Maraqlıdır ki, Quranın "Günəş" (91) surəsinin ilk dörd (!) ayəsində Allah-təala Günəşə and içir:

1. **"And olsun Günəşə və onun işığına"**
2. **" And olsun ( Günəşin ) ardınca çıxan Aya ."**
3. **" And olsun onu (Günəşi) parlaq edən gündüzə"**
4. **" And olsun onu ( Günəşi ) örtən gecəyə"**

Burada diqqət çəkən digər məqam üçüncü ayənin mənasıdır.Yəni bu ayədən məlum olur ki, Günəşi parlaq edən, ona işıq verən əslində gündüzdür. (Bir az da dərinə getsək, Günəşi işıqlandıran əslində gün-düzün nurudur. Bu nuru görə bilənlərə salam olsun !)

"***And olsun ki, Allah bunları hesablamış və təkrar-təkrar saymışdır.*" *Quran, "Məryəm" surəsi 94*

## Ay tutulmaları bir qayda olaraq ayın 14-də baş verir

Günəş tutulmasında olduğu kimi Ay tutulmasında da xüsusi bir qanunauyğunluq var və özündə böyük bir hikməti əks etdirir. Belə ki, internet saytlarından əldə etdiyim Ay tutulmasının cədvəlini Ay (hicri-qəməri) təqvimi ilə müqayisə etdikdə, yenə də heyrətdən donub qaldım. Məlum oldu ki, bütün Ay tutulmaları bir qayda olaraq ayın 14-də (Ay təqvimi ilə) baş verir. 14 ədədinin hikmətlərini şərh etməzdən öncə, Ay tutulmalarının cədvəlini hər iki təqvimlə diqqətinizə çatdırıram.

| SN | Ay tutulmasının baş verdiyi tarixlər | |
|---|---|---|
| | Günəş təqvimi ilə | Ay təqvimi ilə |
| 1 | 10 yanvar 2001 | 14 şəvval |
| 2 | 5 iyul 2001 | 14 rəbiül axır |
| 3 | 30 dekabr 2001 | 14 şəvval |
| **4** | **26 may 2002** | **14 rəbiül əvvəl** |
| **5** | **24 iyun 2002** | **14 rəbiül axır** |
| **6** | **9 noyabr 2002** | **4 ramazan** |
| **7** | **16 may 2003** | **14 rəbiül əvvəl** |
| **8** | **9 noyabr 2003** | **14 ramazan** |
| **9** | **4 may 2004** | **14 rəbiül əvvəl** |
| **10** | **28 oktyabr 2004** | **14 ramazan** |
| **11** | **24 aprel 2005** | **14 rəbiül əvvəl** |
| **12** | **17 oktyabr 2005** | **14 ramazan** |
| *13* | *14 mart 2006* | *14 səfər* |

| | | |
|---|---|---|
| *14* | *7 sentyabr 2006* | *14 şaban* |
| *15* | *4 mart 2007* | *14 səfər* |
| *16* | *28 avqust 2007* | *14 şaban* |
| *17* | *22 feval 2008* | *14 səfər* |
| *18* | *17 avqust 2008* | *14 şaban* |
| *19* | *9 fevral 2009* | *14 səfər* |
| *20* | *7 iyul 2009* | *14 rəcəb* |
| *21* | *6 avqust 2009* | *14 şaban* |
| **22** | **31 dekabr 2009** | **14 mühərrəm** |
| **23** | **26 iyun 2010** | **14 rəcəb** |
| **24** | **21 dekabr 2010** | **14 mühərrəm** |
| **25** | **15 iyun 2011** | **14 rəcəb** |
| **26** | **10 dekabr 2011** | **14 mühərrəm** |
| **27** | **4 iyun 2012** | **14 rəcəb** |
| **28** | **28 noyabr 2012** | **14 mühərrəm** |
| **29** | **25 aprel 2013** | **14 cəmadiyül axır** |
| **30** | **24 may 2013** | **14 rəcəb** |
| *31* | *19 oktyabr 2013* | *14 zilhiccə* |
| *32* | *15 aprel 2014* | *14 cəmadiyül axır* |
| *33* | *8 oktyabr 2014* | *14 zilhiccə* |
| *34* | *4 aprel 2015* | *14 cəmadiyül axır* |
| *35* | *28 sentyabr 2015* | *14 zilhiccə* |
| *36* | *23 mart 2016* | *14 cəmadiyül axır* |
| *37* | *16 sentyabr 2016* | *14 zilhiccə* |
| | | və s. |

Bu kodlaşdırılmış hadisələri təhlil edərkən, diqqətimizi başqa bir məqam cəlb etdi. Sual yarandı ki, hər ayda 30 gün olmasına baxmayaraq niyə məhz 14-cü

günləri Ay tutulub? Xatırladım ki, 14 ədədi **“İbrahim”** surəsinin sıra nömrəsidir. Və İbrahim Peyğəmbər təkallahlığın (tovhidin) əsasını qoymaqla, kitab verilmiş bütün peyğəmbərlərin babasıdır. Ayın 14-cü günləri astronomik hadisələrin təkrarlanmasında məqsəd bəşəriyyətin diqqətini Quranla yanaşı, həm də İbrahim Peyğəmbərə yönəldir.

**“Biz hər şeyi sayıb yazmışıq.”** (78: 29)

14 ədədindən söhbət gedərkən maraqlı bir tarixi faktı diqqətinizə çatdırım ki, Məhəmməd (s) dünyaya təşrif gətirən gecəsi, zalım şah olan fars hökmdarı Nuşirəvanın sarayından 14 (!) sütun uçdu. Hadisəni şərh etmək üçün saraya toplaşan münəccimlər və bilicilər belə qərara gəldilər ki, səmavi kitablar vasitəsi ilə xəbəri qabaqcadan verilən Peyğəmbər artıq dünyadadır və Nuşirəvanın hakimiyyəti süqut edəcək. Aradan heç iki il keçmədi ki, verilən proqnoz özünü doğrultdu və Sasanilər dövləti dağıldı.

“İbrahim” surəsinin rəmzi olan 14 ədədi Quranda çox böyük tarazlıq yaradır. Belə ki, “Rəhimli Allah” surəsinin sıra nömrəsi olan 55 ədədi bu müqəddəs kitabda 41 dəfə keçir (cəmi qırx bir surədə 55-ci ayə var). Eyni zamanda 41 ədədi Quranda 55 dəfə keçir (kitabın cəmi əlli beş surəsində 41-ci ayə var). Bunların fərqi isə 14 ədədinə bərabərdir: 55-41=14. Beləliklə də 14 ədədi tarazlıq (balans) rəmzi sayılır. Məlumdur ki, bəşər yaranandan Xeyirlə Şər arasında həmişə balans olmuşdur. Bəşər tarixinin elə mərhələləri də olmuşdur ki, Xeyirlə Şər arasında mövcud balans (birincinin ziyanına) pozulmuşdur.

Peyğəmbərlər tarixini araşdırdıqda, məlum olur ki, onların zühuru da məhz belə mərhələlərdə baş verir. Yəni Allah-təala xeyirlə şər arasında pozulmuş tarazlığı peyğəmbərlər vasitəsi ilə bərpa edir. Bu gün də Yerdə xeyirlə şər arasında tarazlığın pozulması göz önündədir. Artıq haqq-ədalət demək olar ki, qalmayıb. Yerdəki bu vəziyyət Allah-taalanın qəzəbinə səbəb olmuşdur. Araşdırmalarımız göstərir ki, son vaxtlar baş verən təbii fəlakətlər və müəmmalı təyyarə qəzaları da məhz bu qəzəbin təzahürüdür. Bunu sübut edən faktları aşağıda diqqətinizə çatdıracağıq.
Günəş tutulmalarının cədvəlində olduğu kimi, Ay tutulmalarının da cədvəlində tutulmalar arasında interval **355** gündür ki, bu da (Ay təqvimi ilə) bir il deməkdir. Bu fakt Ay tutulmalarındakı nizamı, qanunauyğunluğu sübut etməklə yanaşı, həm də diqqətimizi yaradılışın əks olunduğu və dördüncü səmavi kitab olan Qurana yönəldir. Qeyd edim ki, Quranın "Ay " (54) surəsində eyni ayə dörd (!) dəfə təkrar olunur:

**"And olsun ki, Biz Quranı** (ondan) **ibrət almaq** (öyüd nəsihət qəbul etmək) **üçün belə asanlaşdırdıq. Amma heç bir ibrət alan** (ondakı elmdən, ədəbdən faydalanan) **varmı?!"** "Ay" surəsi 17-22-32-40-cı ayələr.

Ayədən görünür ki, Rəbbim insanların Quran ədəbini, əxlaqını qəbul etmələrini istəyir. İnsanların isə Qurana biganə yanaşmaları yerdə zəlzələlərə və təyyarə qəzalarına səbəb olur və bütün bunlar riyazi

yolla Ay tutulmalarına bağlanır. Bunu aşağıdakı cədvəldən görəcəyik.

## XXI əsr kamillik əsridir

İndi isə diqqətinizi Quranın səhifələnməsində olan hikmətə cəlb etmək istəyirəm.

Bildiyimiz kimi "Peyğəmbərlər" surəsi Quranda 21 ədədi ilə nömrələnib. Peyğəmbərlər, elm verilmiş şəxslər olduğundan, 21 ədədi də elm, peyğəmbərlik rəmzi sayılır. Xoşbəxtlikdən qismətimizə elm, peyğəmbərlik rəmzi olan 21-ci əsrdə yaşamaq düşüb. Odur ki, bu əsrdə insanların elmi artdıqca, Allah-təalanın hikmətlərini daha dərindən anlamağa çalışırlar. Araşdırmalarımız göstərir ki, elm əsri olan 21-ci əsrdə baş verən astronomik hadisələr–Günəş və Ay tutulmaları ELM MƏNBƏYİ olan Quranın səhifələrinin sayına – 286 ədədinə bağlanır.

## Quranın səhifələnməsində xüsusi bir qanunauyğunluq var

Ötən fəsildə qeyd etdim ki, Quranın orijinalı 286 səhifədən ibarətdir. Belə ki, Quran nazil olandan, keçən əsrə qədər çap olunan və yaxud üzü köçürülən bütün Quranlar harada çap olunmasından asılı olmayaraq 286 səhifədə yerləşdirilib. (Təəssüf ki, son dövrlərdə bu prinsipə əməl edilmir.)

Bunun təsadüf olmadığını, xüsusi bir qanunauyğunluğa tabe olduğunu sübut etmək üçün aşağıda bir

neçə dəlil gətirəcəm.

## Dini bayramlar Quranın səhifələrindəki hikməti təsdiq edir

Quranda təsbit olunmuş İslamın iki böyük bayramı – Qurban və Ramazan bayramları arasında olan günlərin sayı bir qayda olaraq (birincidən sayılmaqla) 286 gündür ki, bu da Quranın səhifələnməsinin Allahın elminə tabe olduğunu sübut edir.

## Quranın səhifələnməsindəki qanunauyğunluğu biologiya elmi də təsdiq edir

İnsanın ana bətnində yarandığı günlərin sayının 286 olduğunu biologiya elmi ilə sübut etmək mümkündür: toxumun bətnə çatması 6 gün + bətndə normal inkişaf 280 gün=286 gün. Buradan görünür ki, Allah-taala insanı ana bətnində Quranın hər səhifəsinə bir gün hesabı ilə saxlayır. Bu da müqəddəs kitabın səhifələnməsində olan hikməti sübut edir.

## Quranın səhifələnməsində olan hikmət təqvimdə də özünü büruzə verir

Quranın səhifələnməsinin qanunauyğunluğunu sübut edən sahələrdən biri də təqvimdir. Belə ki, hər gün istifadə etdiyimiz təqvimə diqqətlə fikir versək, indiyədək fərqinə varmadığımız heyrətamiz bir faktın şahidi olarıq. Belə ki, Ay

təqvimi ilə il 21 martda, Günəş təqvimi ilə isə 31 dekabrda tamamlanır. Hər iki günü insanlar bayram kimi qeyd edir. Bu iki bayram arasında da qalan günlərin sayı bir qayda olaraq (Novruz bayramından sayılmaqla) 286 gün olur ki, bu da Quranın səhifələrinin sayını göstərir və müqəddəs kitabın səhifələnməsindəki prinsipin təsadüf olmadığını sübut edir.

**"And olsun ki, Allah bunları hesablamış və təkrar-təkrar saymışdır."** *Quran, "Məryəm" surəsi 94*

Yeri gəlmişkən qeyd edim ki, Quranın "İnək" surəsi **286** ayədən ibarətdir. Bu da təsadüfi deyil (ümumiyyətlə, Quran məntiqinə görə həyatda təsadüf yoxdur). Çünki elmə məlumdur ki, inəyin anatomik quruluşu **286** sümüyün birləşməsindən yaranmışdır. **"İnək"** surəsində Rəbbim Firoonun zülmündən cana doyan xalqa xilas olmaq üçün Musa peyğəmbər vasitəsiylə xəbəri göndərilən qurbanlıq inəyin əlamətlərindən bəhs edir:

**"Yadınıza gətirin o vaxtı ki, Musa öz qövmünə: "Allah sizin bir inək kəsmənizi əmr edir!" – dedi. Onlar isə: "Bizi məsxərəyəmi qoyursan?" – dedilər"** (Musa da) **"Allah özü məni cahil olmaqdan saxlasın!"- dedi."** *"İnək" surəsi, 67-73-cü ayələr.*

Sonrakı ayələrdə inəyin əlamətlərindən bəhs edərək, tünd sarı (qızılı), görənlərə xoş gələn, qüsursuz, 3-4 yaş arasında, kələ görməyən, bağlı saxlanmayan, tarla sürməyən bir inək (düyə) olduğu bildirilir.

Qurbanlıq inəkdən bəhs edən surənin **2** rəqəmiylə nömrələnməsində də bir hikmət vardır. Belə ki, Rəbbim hər şeyi cüt yaradıb (həyatda hər şey ikidi), o

cümlədən sözü gedən qurbanlıq inək də **ikinci** dəfə kəsiləcəkdir. Hesblamalarımız göstərir ki, maddi, mənəvi böhran keçirən və zalımların zülmündə çabalayan bəşəriyyət xilas olmaq üçün ikinci (!) surədə əlamətləri göstərilən inəyi (düyəni) tapıb ikinci dəfə qurban kəsməlidir.

**“Yadınıza gətirin o vaxtı ki, Musa öz qövmünə: “Allah sizin bir inək kəsmənizi əmr edir!” – dedi. Onlar isə: “Bizi məsxərəyəmi qoyursan?” – dedilər”** (Musa da) **“Allah özü məni cahil olmaqdan saxlasın!”- dedi.”** *“İnək” surəsi, 67-73-cü ayələr.*

## Quranın səhifələnməsindəki qanunauyğunluğu astronomiya elmi də sübut edir

Bildiyimiz kimi Ay və Günəş tutulmaları Quranda qiyamətin əlaməti kimi qeyd olunub və insanlara xəbərdarlıq (siqnal) olduğu bildirilir. XXI əsrdə baş verən astronomik hadisələrin (xəbərdarlıqların) monitorinqi göstərir ki, bu əlamətlər 286 ədədinin üç misli olan 858 (!) ədədi altında təkrarlanır. Oxucuların (ələlxüsus astronomların) marağına səbəb olacağını nəzərə alıb, monitorinqin nəticələrini aşağıdakı cədvəldə təqdim edirəm.

Hər iki cədvəldən görünür ki baş verən Günəş və Ay tutulmaları heç də təsadüf olmayıb, xüsusi bir qanunauyğunluğa tabedir. Bu qanunauyğunluq isə riyazi yolla Quranın səhifələrinə bağlanır. Burada 286 ədədi üç dəfə təkrar olunur ki, (286+286+286) bu da 858 ədədinə bərabərdir. Başqa sözlə desək, astronomik hadisələr "Quran", "Quran", "Quran" deməklə, Yer əhlinin (bəşəriyyətin) diqqətini bu müqəddəs kitaba və onun hökmlərinə tabe olmağın vacibliyinə yönəldir.

## Təyyarə qəzaları riyazi yolla astronomik hadisələrə bağlanır

Araşdırmalarımız göstərir ki, XXI əsrdə baş verən anomal hadisələr və müəmmalı təyyarə qəzaları məhz astronomik xəbərdarlıqlara əhəmiyyət verməməyin nəticəsidir. Bunu sübut etmək üçün kütləvi informasiya vasitələrində çap olunan təyyarə qəzalarının və anomal hadisələrin siyahısını diqqətinizə çatdırıram.

Cədvəldən görəcəksiniz ki, astronomik hadisələr kimi təyyarə qəzaları da Quranın səhifələrinin (286) üç misli olan **858** ədədi ilə bir-birinə bağlanır. **Həmçinin qəzaya uğrayan təyyarələrin üzərindəki marka Ay tutulmasından keçən günlərin sayını göstərir.** Məsələn:

**1.** 2003-cü ilin avqustun 18-də Almaniyanın Frankfurt aeroportundan Kanada istiqamətində havaya qalxan "Boinq-747" təyyarəsində qəza və-

ziyyəti yarandığından yarı yolda yerə enməli oldu. Bu hadisənin **858**-ci günü –2005-ci il dekabrın 23-də Bakıda "AN-140-100" təyyarəsi qəzaya uğradı. Maraqlıdır ki, 2002-ci ilin də eyni tarixində, (23 dekabrda) eyni saatında və eyni dəqiqəsində eyni markalı təyyarə ("AN-140-100") İran ərazisində qəzaya uğramışdı. Bu iki eyni markalı, eyni tarixli və eyni dəqiqəli qəzalar arasında 1098 gün fərq vardır ki, bundan da təyyarənin markasındakı ədədi (140-100) çıxdıqda, yenə də Quranın səhifələrinin üç misli olan **858** ədədi alınır:

**1098 - 140 -100 = 858**

**2.** 30 dekabr 2001-ci il tarixli Ay tutulmasının **737**-ci günü (03.01.04 tarixdə) **Misirdə** "Boinq-**737**" təyyarəsi qəzaya uğrayaraq dənizə düşdü. Bu qəzanın **717**-ci günü (20.12.05 tarixdə) Amerikada "Boinq-**717**" təyyarəsi qəzaya uğradı. Amerikadakı qəzanın 286-cı günü daha bir "Boinq-**737**" təyyarəsi Braziliyada (30.09.06) qəzaya uğradı. **Misirdəki** sözü gedən qəzanın **737**-ci günü isə Ukraynadan Bakıya uçan "Boinq-**737**" təyyarəsi yarı yolda qəza enişi etdi (08.01.06).

Bu tarix Meksika dövlətinin bir neçə gün qaranlığa qərq olmasına səbəb olan müəmmalı enerji qəzasının və Amerikadakı vertolyot qəzasının (03.09.03) **858**-ci günü idi.

**3.** 24 sentyabr 2003-cü il tarixdə Danimarka və İsveçrədə baş verən müəmmalı enerji qəzası hər iki dövlətin ərazisini qaranlığa qərq etdi. Metro da daxil olmaqla bütün nəqliyyat vasitələri dayandığından,

hər iki ölkədə böyük bir həyəcan yaşandı. Bu hadisənin də analoqu **858** gündən sonra – 29 yanvar 2006-cı ildə Azərbaycanda baş verdi. Belə ki, həmin gün Azərbaycanın bütün elektrik stansiyalarında eyni anda baş verən müəmmalı qəza səbəbindən, Bakı da daxil olmaqla respublikanın bütün rayonları qaranlığa qərq oldu. Metro və digər nəqliyyat vasitələri dayandığından, ölkədə böyük bir həyəcan yaşandı.

**4.** 26 dekabr 2003-cü il tarixdə (Ay tutulmasının **727-ci** günü) Amerikada "Boinq -**727**" sərnişin təyyarəsi qəzaya uğradı. Bu müəmmalı hadisənin **858**-ci günü isə Ermənistanın "A-**320**" sərnişin təyyarəsi qəzaya uğradı (03.05.06). Xatırladım ki, Ermənistandakı qəzadan **320** gün qabaq (18 iyun) Amerikada başqa bir təyyarə qəzası baş vermişdi.

**5.** 4 mart 2004-cü il tarixdə Bakıda "İL-**76**" təyyarəsi qəzaya uğradı. (Hadisənin **76**-cı günü (18 mayda) Azərbaycanın daha bir İL-**76** təyyarəsi qəzya uğradı) Bu qəzanın **858**-ci günü - 9 iyul 2006-cı il tarixdə Yerdə bir gündə 5 ədəd təyyarə qəzaya uğradı. Oxucuları yormamaq üçün, bunlardan ikisinin markasını şərh edəcəm. Belə ki, həmin gün Rusiyaya məxsus iki ədəd "A-**310**" sərnişin təyyarəsi qəzaya uğradı. (Birində sərnişinlər salamat xilas edildi). Təyyarələrin markalarını topladıqda (310+310) **620** ədədi alınır. Maraqlıdır ki, qəzanın baş verdiyi 9 iyul tarixi, Ay tutulmasının (28.10.04) **620**-ci günüdür. Xatırladım ki, bu qəzalardan **310** gün qabaq İndoneziyada sərnişin təyyarəsi qazaya uğramışdı.

Burada diqqət çəkən digər məqam ondan ibarət-

dir ki, bu qəzalar 24 iyun 2002-ci il tarixli astronomik xəbərdarlığın (Ay tutulmasının) **1478**-ci günüdür ki, bundan da qəzaya uğrayan təyyarələrin markalarını çıxdıqda yenə də təkrar rəmzi olan **858** ədədi alınır:

**1478 - 310 - 310 = 858**

9 iyul tarixi, əsrin ilk ay tutulmasının 2007-ci günüdür ki, bundan da bəşəri dəyərlər rəmzini (669) çıxdıqda yenə də bəşəri dəyərlər rəmzi alınır və Yer əhlinin diqqətini bu dəyərlərə təslim olmağın vacibliyinə yönəldir:

**2007 - 669 - 669 = 669**

**6.** 25 avqust 2004-cü il tarixdə Rusiyaya məxsus "Tu-134 " və "Tu-154" təyyarələri eyni gündə qəzaya uğradı. Bu qəzaların **858**-ci günü isə – 2007-ci il yanvarın 2-də İndoneziyada "Boinq-**737**" təyyarəsi qəzaya uğradı. Bu qəzada diqqət çəkən digər maraqlı məqam ondan ibarətdir ki, hadisənin baş verdiyi tarix, İndoneziyada yüz minlərlə insanın həyatına son qoyan zəlzələ və sunaminin (26.12.04) **737**-ci günüdür. Sözü gedən sunnami fəlakətinin **858**-ci günü isə (2007-ci il mayın 4-də) Keniyadan Kameruna uçan «Boinq-**757**» təyyarəsi qəzaya uğradı. Maraqlıdır ki, bu təyyarənin də üstündəki marka (**757**) əvvəlkilərdə olduğu kimi Ay tutulmasından (08.04.05) keçən günlərin sayını (**757)** göstərirdi.




**7.** 30 dekabr 2001-ci il tarixli Ay tutulmasının **727**-ci günü (26.12.2003) Afrikada (Benin) "Boinq **727**", həmin Ay tutulmasınn **737** ci günü isə (03.01.04), "Boinq **737**" sərnişin təyyarələri qəzaya uğradı.

**8.** 17 yanvar 2008-ci il tarixdə London aeroportuna eniş etmək istəyən müasir dövrün ən etibarlı təyyarəsi hesab edilən "Boinq-**777**" təyyarəsinin hər iki motoru söndüyündən, qəza baş verdi və sərnişinlərdən yaralananlar oldu. Həmin gün əsrin 2574-cü günü idi ki, bu da **858** ədədinin üç mislidir:

**2574 - 858 - 858 = 858**

Burada 858 ədədinin üç dəfə təkrarlanması təsadüfi deyildir. Belə ki, təyyarənin markasındakı 7 rəqəmi də üç dəfə təkrarlanır. Həmçinin bu qəza Türkiyədə baş verən təyyarə qəzasının (2.12.05) **777**-ci (!) günü baş verib.

Londonda baş verən bu qəzanın **737**-ci günü – 24 yanvar 2010-cu il tarixdə Livandan havaya qalxan «**Boenq-737**» markalı təyyarə qəzaya uğrayaraq Aralıq dənizinə düşdü.

**9.** 17.07.07 tarixdə Braziliyada "**A-320**" sərnişin təyyarəsi qəzaya uğradı. Bu hadisənin **320**-ci(!) günü (30.05.08) Hondurasda "**A-320**" təyyarəsi yenidən qəzaya uğradı.

**10.** 24 avqust 2008-ci il tarixdə Özbəkistandan İrana uçan **"Boenq-737"** markalı təyyarə qəzaya uğradı. Bu hadisənin **310-**cu günü (30 iyun 2009-cu ildə) Parisdən Kamora uçan, Yəmənə məxsus "**A-310"** markalı təyyarə qəzaya uğradı .

**11.** 15 iyul 2009-cu il tarixdə İrandan Ermənistana uçan " **TU-154** " markalı təyyarə qəzaya uğradı. Maraqlıdır ki, həmin gün 9 fevral 2009-cu il tarixli Ay tutulmasının **154** cü günüdür

**12.** 17 aprel 2009-cu il tarixdə Amerikada " **Ciesa - 421 "** markalı təyyarə qəzaya uğrayaraq , yaşayış evinin üzərinə düşən gün , 21 fevral 2008-ci il tarixli Ay tutulmasının **421**-ci günü idi.

**13.** 14 sentyabr 2008-ci il tarixdə Moskva-Perm marşrutu ilə uçan "Boenq-**737-500**" təyyarəsi qəzaya uğrayanda, 8 sentyabr 2006-cı il tarixli Ay tutulmasının **737**-ci günü idi. Burada diqqət çəkən digər məqam qəzaya uğrayan təyyarənin markasındakı ədədlərin cəmidir. Belə ki, **737+500=1237**. Maraqlıdır ki, qəza baş verən gün 24 aprel 2005-ci il tarixdə baş verən Ay tutulmasının **1237**-ci günüdür.

Qəza baş verən gün 6-cı bənddə qeyd etdiyim Kenya-Kamerun reysi ilə uçan "Boenq-**757**"-nin qəzasının **500**-ci günü idi.

**"Biz hər şeyi sayıb yazmışıq."** *Quran, "Böyük xəbər" surəsi, 29-cu ayə*

## Astronomik hadisələr və dəryalar

Yuxarıda qeyd etdim ki, Günəş tutulmalarının 29 ədədi altında baş verməsi Quranın düzülüşündəki qanunauygunlugu təsdiq etməklə yanaşı, həm də Yerin INSAN yaşayan **29** faiz hissəsinə işarədir. Elə isə sual yaranır ki, bəs yerin qalan **71** %-nə necə, xəbərdarlıq olunurmu? Bu sualın da cavabını tapmaq üçün Quran işığında astronomiya elmini araşdırmaq qərarına gəldim və xoşbəxtlikdən əziyyətim hədər getmədi və sualın cavabını tapdım.

Hələ astronomiya elmi yaranmamışdan qabaq kahinlər Günəş və Ay tutulmalarını əsrlər boyu qeydə almış və onların sayı üzərində təhlillər aparmışlar. Uzunmüddətli təhlillərdən sonra müəyyən olunmuşdu ki, astronomik hadisələr dövrlərə bölünür və hər dövr 18 il, 11 gün, 8 saatı (və yaxud, 18 il + 286 saatı və yaxud 6585 sutkanı) əhatə edir. Sonradan astronomiya elmi bu dövrü "**saros dövrü**" adlandırdı və bir qayda olaraq hər "saros dövrü"ndə **71** dəfə astronomik xəbərdarlıq (Günəş və Ay tutulması) baş verir. Bu **71** tutulmanın da bir qayda olaraq **28**-i Ay, **43**-ü isə Günəş tutulması olur. Neçə minilliklərdir ki, dəyişməyən bu rəqəmlərin mənası (niyə məhz bu sayda olması) hələ ki, şərh olunmayıb. (Yəqin ona görə ki, indiyədək bu məsələyə Quran fonunda baxılmayıb.)

Araşdırmalarımız zamanı məlum oldu ki, Allahın elminin sirrini məhz Özünün göndərdiyi kitabla - Quranla açmaq mümkündür. Belə ki, Buradakı **71** ədədi Yerin dərya hissəsinə işarədir. Dəryadan söhbət

düşəndə isə gözlərimiz önünə ilk növbədə gəmi və Nuh gəlir. Təsadüfi deyil ki, «Nuh» surəsinin sıra nömrəsi də **71**-dir ki, bu da həm dəryalara, həm də "saros dövrü"ndəki **71** tutulmaya işarədir. **71**-ci surə **28** ayədən ibarətdir. Bu, «saros dövrü»ndə olan **28 (!)** ay tutulmasının açarıdır. **71-28=43** düsturu isə bir astronomik dövrdə **43 (!)** dəfə baş verən Günəş tutulmasının açarıdır.

**"And olsun ki, Allah bunları hesablamış və təkrar-təkrar saymışdır."** *Quran, "Məryəm" surəsi 94*

Buradan məlum olur ki, neçə əsrlərdir baş verən Günəş və Ay tutulmaları ilə Allah-taala insanlara əməllərinin nəticəsi olaraq onları gözləyən subasmaları xəbər verirmiş. Insanların bu xəbərdarlıqlara məhəl qoymamasının və günahlardan çəkinməməsinin nəticəsidir ki, bu gün subasma halları (daşqınlar) bütün dünyanı bürüyüb. Hamıya məlumdur ki, alimlərin hesablamalarına görə daşqınların nəticəsində yaxın bir neçə onillikdə bir çox Avropa dövlətləri, həmçinin Amerika suyun altında qalacaq. Bunu hamı bilsə də çox təəssüf ki, səbəbləri haqqında düşünən yoxdur. Səbəblərini anlamaq üçün həzrəti Peyğəmbərin zamanında baş verən bir əhvalatı diqqətinizə çatdırıram.

*Əbu Musa Əl-Əşari (r.a.) rəvayət edir ki, Peyğəmbərin (s.ə.v.) zamanında Günəş tutuldu. O, Qiyamətin qopduğunu zənn edib (!) məscidə gəldi və namaz qıldı. Namaz əsnasında qiyamı, rukunu və səcdəni uzatdı. Mən onun bu cür namaz qıldığını görməmişdim. Namaz qıldıqdan sonra dedi: «Allahın göndərdiyi bu*

*rəmzlər, kiminsə ölümünə və doğulmasına görə deyildir. Lakin Allah bununla qullarını qorxudur. Belə olduğunu gördüyünüz zaman Allaha zikr və dua etməyə, Ondan bağışlanma diləməyə tələsin!» Səhihu-1–Buxari, 1044; Səhih Müslüm, 2114.*

Qurandan və Peygəmbərin söhbətindən məlum olur ki, Günəş və Ay tutulmaları insanlara xəbərdarlıqdır – siqnaldır. Belə olduqda insanlar günahlarına görə tövbə etməli və yaxşı işlər görməyə çalışmalıdırlar. Çünki belə xəbərdarlıqların ardıyla təbii fəlakətlər və qəzalar gəlir. Ancaq qazanılan savablar insanı bu cür fəlakətlərdən sıgortalayır. (Necə ki, Nuh və onun ətrafındakılar sıgortalanmışdılar.) Söhbətin bu yerində Övliya İbrahim bin Ədhəmin sözləri yada düşür.

*Bir gün İbrahim bin Ədhəmdən soruşdular ki, “Allah-taala buyurur:*

*”Ey bəndələrim, Məndən dilək diləyin, qəbul edərəm, verərəm”. Halbuki diləyirik, vermir. Səbəbi nədir? İbrahim bin Ədhəm belə cavab verdi: ”Allah-təalanı çağırırsınız, amma ona itaət etmirsiniz. Peyğəmbəri tanıyırsınız, amma onun ardınca getmirsiniz. Qurani-Kərimi oxuyursunuz, amma onun göstərdiyi yolla getmirsiniz. Cənabi Haqqın nemətlərindən faydalanırsınız, amma Ona şükr etmirsiniz. Cənnətin ibadətkarlar üçün olduğunu bilirsiniz, amma hər vaxt ibadətə hazır durmursunuz. Cəhənnəmin asilər üçün yaradıldığını bilirsiniz, amma ondan çəkinmirsiniz. Atalarınızın və babalarınızın aqibətinin necə olduğunu görürsünüz, amma ibrət almırsınız. Öz ayıblarınızı gör-*

*mürsünüz, amma başqalarının ayıblarını araşdırırsınız. Beləlləri ki, var şükr etsinlər ki, başlarına daş düşmür və yerə girmirlər. Daha nə istəyirlər? Dualarınızın nəticəsi yalnız bu olursa, kifayət deyilmi?"*

***"Bəndələrim Məni səndən soruşduqda söylə ki, Mən onlara yaxınam. Dua edib Məni çağıranın duasını qəbul edərəm. Amma*** *(bir şərtlə ki,)* ***gərək onlar da Mənim çağırışımı qəbul edib, Mənə iman gətirsinlər. Bununla da, ola bilsin ki, doğru yola yetişsinlər".*** *Quran, "İnək" surəsi, 186-cı ayə.*

# İSTİFADƏ EDİLƏN ƏDƏBİYYAT

1. Məşədi Xanım Nemət – «Azərbaycanda pirlər»
2. V.Məmmədəliyev – «Qurani-Kərim» tərcümə
3. Şeyx Məhəmməd İbni Həsən hürr Amili «Hədisi-Qüdsi»

# Mündəricat

ŞIX EYYUB BABA .......................................................... 3
Tarixi şərait ......................................................... 9
Övliyanın qəbrini dağıtmağa çalışırlar ........................... 10
Odu pambığa bükən övliya .............................................13
Övliyanın müridi qarğa sürüsünü qabağına qatıb gətirdi ...............................................................14
Ziyarətgahdakı qoç heykəli nəyə işarədir ...................... 15
İlan rusu ziyarətgaha buraxdı, «müsəlman»ı buraxmadı ..............................................................16
ŞIX MƏHƏMMƏD BABA ..............................................19
Ərəboğlu imtahana çəkildi .............................................20
Övliyanın dəfn mərasimi də möcüzəli oldu ......................22
ŞIX ƏHMƏDPAŞA BABA .............................................23
Şıxın nüfuzu hökuməti narahat edirdi ............................23
Əhmədpaşa Babanın ruhu məni ölümdən qurtardı ........ 25
HACI HƏMİDPAŞA BABA ............................................26
Səməd Vurğunun adını Hacı Şıx qoyub ......................... 28
Kəpənəklər qəbri açmağa qoymadılar ............................30
Övliyanın atı çayı uçaraq keçdi ......................................31
HACI AĞAXAN BABA ..................................................33
ALIXAN BƏY ........................................................... 35
SOLTANMAHMUD BABA ............................................ 37
Övliya mühasirədən necə cıxdı ...................................... 38
Türmənin qapısı bağlanmadı ......................................... 39
Nəriman Nərimanov övliyanın intellektual səviyyəsinə heyran qaldı ................................................39
SOFİ HƏMİD PİRİ ......................................................... 42
QURAN ELM MƏNBƏYİDİR ........................................ 44
Bu dəryanın bir kənarı yoxdu, yox! .............................. 44
Əli elmin qapısıdır .........................................................45
Quranın surələri və ayələri Allahın iradəsi ilə düzülüb və xüsusi bir qanunauyğunluğa tabedir ............ 46
Quranın surələrinin düzülüşünü kimya elmi 50

də təsdiq edir ..........................................................
Quranın düzülüşünün doğruluğunu fizika
elmi də təsdiq edir ........................................................ 54
İnsan necə nurlanır ........................................................55
Surələrin və ayələrin nömrələnməsində olan
qanunauyğunluğu anatomiya elmi də təsdiq edir .......... 59
Ballistika elmi də Quranın ayələrinin düzülüşünün
Allah tərəfindən olduğunu sübut edir ............................ 62
İnsan məscidə bənzəyir ..................................................63
Quran insanın " texniki pasportu"dur .......................... 63
Cəmiyyət niyə çürüyür? ............................................... 64
Qurandakı hikmətləri kibernetika elmi də təsdiq edir ... 65
TƏYYARƏ QƏZALARININ
GÖRÜNMƏYƏN TƏRƏFLƏRİ
Günəş tutulmaları bir qayda olaraq ayın 29-da
baş verir ....................................................................... 68
Ay tutulmaları bir qayda olaraq ayın 14-də baş verir .. 73
XXI əsr kamillik əsridir ............................................... 77
Quranın səhifələnməsində xüsusi bir
qanunauyğunluq var ....................................................77
Dini bayramlar Quranın səhifələrindəki
hikməti təsdiq edir ....................................................... 78
Quranın səhifələnməsindəki qanunauyğunluğu
biologiya elmi də təsdiq edir ....................................... 78
Quranın səhifələnməsində olan hikmət
təqvimdə də özünü büruzə verir .................................. 78
Quranın səhifələnməsindəki qanunauyğunluğu
astronomiya elmi də sübut edir ................................... 80
Təyyarə qəzaları riyazi yolla astronomik
hadisələrə bağlanır .......................................................83
Astronomik hadisələr və dəryalar ............................... 89
İSTİFADƏ EDİLƏN ƏDƏBİYYAT ..............................93

# PAŞA YAQUB

# ŞIX EYYUB BABA


**Korrektolar:** *Aidə Ömərova*
*Aytən Nuriyeva*
**Mətbəənin direktoru:** *Elman Qasımov*
**Kompüter dizayneri:** *Mətanət Babayeva*

Çapa imzalanmışdır: 12.02.2010
Formatı 60x84 1/16. Həcmi 6 ç.v.
Sifariş №87. Tiraj 1500 (1 z.300)

«Zərdabi LTD» MMC
Nəşriyyat Poliqrafiya müəssisəsi
İş ☎ (012) 514-73-73